RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 167 (8760) CÜMƏ AXŞAMI, 12 avqust 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Ölkənin energetika sektorunda uğurlu islahatlar aparılır

**Xəbər verildiyi kimi, bu il avqust ayının birinci ongünlüyündə Prezident İlham Əliyev əsaslı şəkildə yenidən qurulan "Abşeron" və "Suraxanı" yarımstansiyalarının açılışında iştirak etmişdir. Dövlət başçısının şəxsən hər iki yarımstansiyanın açılışını etməsi Azərbaycanın energetika sisteminin inkişafının və təkmilləşməsinin ölkə üçün xüsusi əhəmiyyət daşıdığını bir daha təsdiqləyir.**

Qeyd etmək yerinə düşər ki, hələ ötən əsrin 70-ci illərinin əvvəllərindən Ulu Öndər Heydər Əliyev respublikanın elektroenergetika sahəsinin sürətli inkişafına şəxsən nəzarət edirdi. Məhz onun birbaşa rəhbərliyi altında Cənubi Qafqazda ən böyük istilik elektrik stansiyası - "Azərbaycan" İES inşa olunmuşdur. Bakı şəhəri və Abşeron yarımadasının sürətlə artan tələbatını qarşılamaq üçün stansiyada istehsal edilən elektrik enerjisinin bu əraziyə ötürülməsi məqsədilə respublikanın ən böyük yarımstansiyası olan 500/330/220 kilovoltluq "Abşeron" yarımstansiyası tikilmişdir.

"Abşeron"un fəaliyyət göstərdiyi 40 ilə yaxın müddət ərzində buradakı avadanlıqlar köhnəlmiş, istismarda ciddi problemlər yaranmışdır. Yarımstansiyada əsaslı təmirin aparılması, müasir və yeni sistemlərin tətbiqi zərurətə çevrilmişdir. Prezident İlham Əliyevin "Abşeron" yarımstansiyasının əsaslı şəkildə yenidən qurulması barədə göstəriş verməsində də məqsəd bu çatışmazlıqların aradan qaldırılması olmuşdu.

Yarımstansiyanın müasir səviyyədə yenidən qurulması ölkənin enerji sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Burada Bakının və Abşeron yarımadasının əksər hissəsini elektrik enerjisi ilə təchiz edən elektrik stansiyası və köhnə idarəetmə binası əsaslı surətdə təmir olunmuşdur. Eləcə də ilk dəfə 22 nömrədən ibarət mühəndis-yataqxana korpusu inşa edilmiş, işçilərin istirahəti, idmanla məşğul olması, asudə vaxtlarını səmərəli keçirməsi üçün hərtərəfli şərait yaradılmışdır. Görülən əsaslı təmir işləri yarımstansiyanın səmərəli və etibarlı iş rejiminin, dayanıqlığının artırılmasına, istismar xərclərinin azaldılmasına, əməkdaşlar üçün təhlükəsiz və rahat iş şəraitinin yaradılmasına tam nail olmağa imkan vermişdir.

Qeyd edək ki, "Abşeron" enerji qovşağı Bakı və Abşeron yarımadasından başqa, bütün ölkənin enerji sisteminin əsas bazasıdır. Çünki Mingəçevir, Şirvan və digər şəhərlərdə yerləşən iri elektrik stansiyalarından çox böyük həcmdə yük məhz "Abşeron"a və oradan da sistem əhəmiyyətli digər yarımstansiyalara ötürülür. Yarımstansiya "Azərbaycan" İES, "Sumqayıt", "Şimal" və "Cənub" elektrik stansiyaları, həmçinin Mingəçevir SES, "Səngəçal", "Qobu" elektrik stansiyaları, "Xaçmaz" modul tipli elektrik stansiyası ilə əlaqələndirilmişdir. Bu gün "Abşeron" belə böyük generasiya mənbələri ilə əlaqələndirilən yeganə qovşaq yarımstansiyasıdır.

*Ardı 5-ci səh.*

# Mədəniyyət diplomatiyası

## İlham Əliyevin bu sahədə yürütdüyü siyasət xalqımızın bəşəri miqyasda tanınmasında mühüm rol oynayır

**Mədəniyyət siyasəti hər bir xalqın bəşəri miqyasda layiqli yerini tutmasında və tanınmasında mühüm rol oynayır. Bu reallığı düzgün dəyərləndirən ölkə rəhbərliyi xalqımızın zəngin mədəni irsinin dünyada təbliği istiqamətində ardıcıl dövlət siyasətinin həyata keçirilməsinə daha çox üstünlük verir.**

Elə çağdaş dünyamızın ən güclü dövlətləri də ilk növbədə mədəniyyətə xitab edir, dünyanın gələcəyini qanlı savaşlarda deyil, mədəniyyətlərin dialoqunda görür və bu hədəf uğrunda çalışırlar. Hər birimiz razılaşarıq ki, dünyada sülhün, mədəniyyətlər arasında dialoqun, insanı qorumağın və onun rifahı üçün çalışmağın alternativi yoxdur. Beləliklə, Yer üzündə sağlam düşüncənin əhatəsi genişlənir. Xoş niyyətlər ətrafında birləşən insanların sayı artır. Bu, sağlamlaşan düşüncənin dəyişdiyi dünyadır!

Bəşəriyyət üçün bu nailiyyətləri yaradan faktlardan biri də çoxumuzun əsl mahiyyətini, bəlkə də heç dərindən anlamadığımız, sadəcə, ölkəmizdə keçirilən silsilə beynəlxalq tədbirlər kimi yanaşdığımız festivallar, mahnı müsabiqələri, qlobal mədəniyyətlərarası dialoq forumlarıdır. Bu forumlarda aparılan müzakirələrdir. Dünyanın nüfuzlu söz sahibləri arasında gedən fikir və ideya mübadilələridir. Əldə edilən razılaşmalardır. Bakıdan bütün bəşəriyyətə ünvanlanan çağırışlardır. Bu gün həyata keçirilən çoxşaxəli layihələri birləşdirən ümumi ortaq xətt məhz milli irsin təbliği, mədəniyyət abidələrinin, genofondun qorunmasıdır.

Heydər Əliyev Fondunun dəstəyi və təşkilatçılığı, Azərbaycan Respublikasının Təhsil və Mədəniyyət nazirliklərinin, eləcə də Bakı Musiqi Akademiyasının fəal iştirakı ilə iyulun 31-dən avqustun 4-dək XII Qəbələ Musiqi Festivalı keçirildi. İndiyə qədər Qəbələdə keçirilmiş musiqi festivallarının hər biri ölkə həyatında möhtəşəm mədəniyyət bayramı kimi yadda qalıb. Builki festivalın isə bir əlamətdar mənası da vardı. Tədbir ölməz bəstəkarımız Üzeyir bəy Hacıbəylinin adını daşıyan Bakı Musiqi Akademiyasının 100 illik yubileyinə həsr olunmuşdu.

*Ardı 6-cı səh.*

◆ 12 Avqust Beynəlxalq Gənclər Günüdür

# Düzgün siyasət və vətənpərvər gənclik

## Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin ən mühüm istiqamətlərindən biri Azərbaycan gəncliyinə aiddir

**Müstəqillik illərində Azərbaycanın əsas kadr potensialını da məhz Heydər Əliyevin yetişdirdiyi mütəxəssislər təşkil edirdi.**

Ulu Öndərin yetirmələri olan, onun vətənpərvərlik məktəbindən öyrənən gənclik ötən əsrin 80-ci illərinin sonlarında Azərbaycanın istiqlalı uğrunda ayağa qalxdı. Ümummilli Lider Heydər Əliyev 1993-cü ilin 15 iyununda hakimiyyətə qayıdışından sonra dövlət gənclər siyasətinin vahid koordinasiya edilərək mərkəzləşmiş qaydada icrası üçün xüsusi sərəncam verərək Gənclər və İdman Nazirliyi yaradıldı. Gənclər siyasəti ilə bağlı mühüm qərarlar verildi. "Gənclər siyasəti haqqında" qanun qəbul olundu.

Ümummilli Lider gənclərlə keçirdiyi mütəmadi görüşlərlə onlara nə qədər böyük dəyər verdiyini, gəncləri maraqlandıran məsələləri daim diqqətdə saxladığını, gənc nəslin gələcəklə bağlı ideyalarının, hədəflərinin mühümlüyünü göstərirdi. Onların mənəvi və fiziki sağlamlığının, vətənpərvərlik ruhunda tərbiyəsinin, milli dəyərlərimizə bağlılığının nə qədər həyati vacib məsələ olduğunu nümayiş etdirir, öz yanaşmaları ilə gənclərə şəxsi nümunə olurdu. Bu kurs zamanın çağırışlarına uyğun olaraq Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən daha böyük əzmlə həyata keçirilir. Dövlət başçısı Azərbaycanın qüdrətli dövlətə çevrilməsi naminə apardığı fəaliyyətdə gənclərə böyük inam bəsləyir. Gəncliyin inkişafı üçün lazımi şəraitin yaradılması istiqamətində məqsədyönlü addımlar atır.

*Bax: səh. 4*

# Dost çətin günlərdə tanınır

**Türkiyədə baş verən güclü meşə yanğınları bəlli həqiqətlərə yeni işıq saldı. Belə ki, dəhşətli yanğınlarla mübarizənin fonunda bütün dünya yenidən Azərbaycan-Türkiyə qardaşlığına və dostluğuna şahidlik etdi. Bir daha təsdiq olundu ki, bu dostluq və qardaşlıq əbədidir, sarsılmazdır və iki qardaş həm xoş, həm dar günlərində bir-birilərinin yanındadırlar.**

### Köməyə tələsən ilk ölkə Azərbaycan oldu

Azərbaycan Prezidenti Türkiyədə başlayan yanğınların ilk vaxtlarından hadisəyə münasibət bildirib. İyul ayının 30-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana məktub ünvanlayan Prezident İlham Əliyev dağıdıcı yanğınlar nəticəsində həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verib, yaralananlara şəfa diləyib. Təsadüfi deyil ki, yanğının söndürülməsində Türkiyəyə kömək etməyə tələsən ilk ölkə Azərbaycan olub.

Avqustun 6-da isə Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib. Azərbaycan Prezidenti qardaş Türkiyənin müxtəlif bölgələrində baş vermiş güclü meşə yanğınları nəticəsində insanların həlak olması ilə əlaqədar Prezident Rəcəb Tayyib Ərdoğana bir daha başsağlığı verib.

*Ardı 3-cü səh.*

# Vaksinasiya ümumxalq hərəkatına çevrilməzsə...

## Dünyanın COVID-19-dan xilas olması üçün insanların peyvəndlənməsi birinci və vacib şərtdir



Təbii fəlakətlər Yer üzünü son illər bürüməkdə davam edir. Planetin başı üzərində kabus kimi dolaşmaqda olan koronavirus pandemiyasının qarşısının alınması uğrunda iki ilə yaxındır ki, aparılan mübarizə vaksinlərin əldə edilməsi ilə özünün əsas və həlledici mərhələsinə qədəm qoyanda ilk növbədə sevinən, həyatları təhlükədən sovuşacaq əsas qrup məhz həkimlərimiz oldular.

Buna görə də elə ilk vaksinasiya prosesinə də həkimlərimiz, bir sözlə, tibb işçiləri, səhiyyə sahəsində insanların sağlamlığının keşikçiləri iştirak etməklə nümunə göstərdilər. Bu da səbəbsiz deyildi. Əlbəttə, hər bir "yenilik" o qədər də asan qəbul edilmir. Koronavirusa qarşı hazırlanan vaksinlərə də inam insanların müəyyən sosial təbəqəsində yetərincə deyildi. Buna görə də dezinformasiya nəinki bizim ölkəmizdə, əslində, dünyada baş alıb getməkdə idi. Təəssüfləndirici hal da odur ki, COVID-19-dan xilas yolu kimi peyvəndlənmənin vacibliyini bilə-bilə insanlar ondan istifadə olunmasına könüllü qoşulanlara inamsız yanaşırdılar.

*Ardı 6-cı səh.*

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, №11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12 (I kitab), maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392, № 5, maddələr 864, 880, № 6, maddə 1191, № 7 (I kitab), maddələr 1383, 1428; 2019, № 1, maddə 8; 2020, № 7, maddələr 828, 851, 856, № 11, maddə 1322, № 12 (I kitab), maddələr 1425, 1427; 2021, № 2, maddə 114) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 23.2-ci maddəyə "15 il" sözlərindən sonra "(bu Qanunun 23.2-1-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla)" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 23.2-1-ci maddə əlavə edilsin:

"23.2-1. Dövlət orqanının əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən publik hüquqi şəxsin yaradılması ilə əlaqədar dövlət qulluqçularının dövlət qulluğuna xitam verildiyi tarixə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş əmək pensiyası yaşına çatmasına ən çoxu 2 il qalmış dövlət qulluqçusu kimi əmək pensiyasına əlavə almaq hüququ onların dövlət qulluğu vəzifəsində minimum 13 il qulluq stajı olduğu halda yaranır.";

1.3. 23.3-cü maddəyə "stajına" sözündən sonra "(bu Qanunun 23.2-1-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla)" sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2021-ci il*

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 2 iyul tarixli 358-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 29 dekabr tarixli 435 nömrəli, "Dövlət qulluqçularına əmək pensiyasının təyin edilməsi üçün dövlət məvacibinin hesablanması Qaydaları"nın və "Dövlət qulluqçularının əmək pensiyasının yenidən hesablanması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2005-ci il 7 fevral tarixli 194 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 2 iyul tarixli 358-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 23.2-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 23.2-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

2. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 28; 2002, № 8, maddə 495; 2005, № 12, maddə 1111; 2007, № 12, maddə 1241; 2008, № 5, maddə 363; 2010, № 2, maddə 80; 2017, № 8, maddə 1518; 2018, № 2, maddə 170, № 11, maddə 2249; 2019, № 1, maddə 75, № 8, maddə 1403; 2020, № 1, maddə 7, № 7, maddə 871, № 11, maddə 1348, № 12 (I kitab), maddə 1480) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1-ci bəndə "17.5-ci," sözlərindən sonra "23.2-1-ci," sözləri əlavə edilsin;

2.2. 3.1-1-ci bəndə "cümləsində" sözündən sonra "və 23.2-1-ci maddəsində" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 194 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 70; 2007, № 11, maddə 1117; 2018, № 2, maddə 187; № 8, maddə 1038) ilə təsdiq edilmiş "Dövlət qulluqçularının əmək pensiyasının yenidən hesablanması Qaydaları"nın 6-cı hissəsində "azı 15 il" sözləri "minimum 15 il ("Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 23.2-1-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla)" sözləri ilə əvəz edilsin.

4. Bu Fərman 2020-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 avqust 2021-ci il*

# "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin idarə edilməsinin təkmilləşdirilməsinə dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 yanvar tarixli 1258 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

"Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 1, maddə 36; 2004, № 9, maddə 681; 2005, № 2, maddə 73, № 12, maddə 1109; 2006, № 7, maddə 590, № 9, maddə 736; 2007, № 3, maddə 219, № 12, maddə 1244; 2009, № 7, maddə 529, № 10, maddə 777; 2010, № 4, maddə 298, № 7, maddə 610; 2011, № 9, maddə 789, № 11, maddə 1011; 2014, № 2, maddə 119, № 12, maddələr 1582, 1584; 2016, № 2 (II kitab), maddə 268, № 3, maddə 472; 2017, № 10, maddə 1780; 2018, № 7 (I kitab), maddə 1453; 2019, № 5, maddə 847; 2021, № 5, maddə 441) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 5.19-cu bəndinin ikinci cümləsində ", geologiya və geofizika məsələləri üzrə, yataqların işlənməsi üzrə, iqtisadi məsələlər üzrə, emal üzrə, sərmayələr və marketinq üzrə, sosial məsələlər üzrə, ekologiya üzrə, kadr, rejim və informasiya texnologiyaları üzrə, strateji inkişaf üzrə, neftin, qazın nəqli və qaz təsərrüfatı məsələləri üzrə vitse-prezidentlərindən və" sözləri "və 12 (on iki)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 avqust 2021-ci il*

# Z.A.Qurbanovun Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Zaur Aydın oğlu Qurbanov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 avqust 2021-ci il*

# K.T.Nəcəfovun Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Kənan Təhməz oğlu Nəcəfov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 avqust 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; 2019, № 3, maddə 411, № 4, maddə 619, № 5, maddələr 839, 855, № 6, maddə 1027, № 12, maddə 1921; 2020, № 1, maddə 5, № 2, maddə 100, № 8, maddə 1039, № 11, maddə 1357; 2021, № 1, maddə 30; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 iyun tarixli 1364 nömrəli və 23 iyun tarixli 1378 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 3.1.28-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.28. sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan məlumatların (sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün normativ hüquqi aktlarda nəzərdə tutulan sənədlər, ödəniləcək vergi və rüsumlar, hesabatlar, lisenziya və icazələr və s.) mərkəzləşdirilmiş qaydada əldə edilməsini asanlaşdırmaq məqsədilə "e-KOB evi" portalının (bundan sonra - portal) yaradılmasını, fəaliyyətini, portalda "Sahibkarın elektron kabineti" və "Biznes Naviqator" altsistemlərinin yaradılmasını, dövlət orqanları (qurumları) tərəfindən KOB evlərində göstərilən və Dövlət Xidmətlərinin Elektron Reyestrinə daxil edilmiş, habelə Elektron Hökumət İnformasiya Sisteminə (bundan sonra - EHİS) inteqrasiya olunmuş elektron xidmətlərin, EHİS vasitəsilə portal üzərindən elektron formada göstərilməsini təmin etmək;".

2. 3.1.29-cu yarımbənddə "işini əlaqələndirmək" sözləri "əlaqələndirilməsini" sözü ilə, "təşkil etmək üçün portalın daxilində "KOB e-şəbəkə"sini yaratmaq və elektron xidmətlərin mərkəzləşdirilmiş dövlət informasiya sistemləri ilə inteqrasiyasını təmin etmək" sözləri "portalın "Biznes Naviqator" altsistemi vasitəsilə təşkil etmək" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 avqust 2021-ci il*

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Avqustun 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Corc Dik ilə görüşüb.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin sədri ölkələrimiz arasındakı münasibətlərdən bəhs edib, ölkələrimiz arasında əlaqələrin inkişafında İsrailin Azərbaycandakı səfirliyinin fəaliyyətini vurğulayıb. Muxtar respublikanın uzun illər blokada şəraitində yaşadığını bildirən Ali Məclisin sədri kommunikasiyaların bərpasından sonra əlaqələrin müxtəlif sahələrdə - təhsil, səhiyyə, turizm, kənd təsərrüfatı və yeni texnologiyaların tətbiqi istiqamətində genişlənəcəyinə əminliyini ifadə edib.

Səmimi qəbula görə minnətdarlıq edən səfir Corc Dik Naxçıvan Muxtar Respublikasına səfərinin əhəmiyyətinə toxunub. Azərbaycandakı multikultural və tolerant mühitdən bəhs edən diplomat əlaqələrin gələcəkdə daha da möhkəmlənəcəyini bildirib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Azərbaycan İrana nota verib

Avqustun 11-də İran İslam Respublikasının ölkəmizdəki səfiri Azərbaycan Xarici İşlər Nazirliyinə (XİN) dəvət olunub.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə səfirin diqqəti İran İslam Respublikasına məxsus yük avtomobillərinin Qarabağa qanunsuz səfər etməsi ilə bağlı aşkar edilmiş arzuolunmaz faktlara cəlb edilib və bununla bağlı qarşı tərəfə nota təqdim olunub.

Notada son dövrlər dost İran İslam Respublikasına məxsus müxtəlif təyinatlı avtomobillərin davamlı olaraq rəsmi Bakının icazəsi olmadan Azərbaycanın Qarabağ bölgəsinə giriş-çıxış etməsi ilə bağlı narazılığımız ifadə edilib. Bir müddət əvvəl İran tərəfinə şifahi şəkildə çatdırılmış narazılığımız görüş zamanı səfirin qarşısında bir daha qaldırılıb.

Görüş zamanı narahatlıq doğuran və iki ölkə arasında mövcud yaxın dostluq və tərəfdaşlıq münasibətlərinin ruhuna uyğun gəlməyən bu kimi hallara son qoyulması istiqamətində İranın yeni administrasiyası tərəfindən əməli addımların atılacağı qeyd olunub.

# Ermənistanın hərbi təcavüzü nəticəsində kənd təsərrüfatına dəymiş zərərlə bağlı fermerlərə kompensasiya ödənilməsinə başlanılıb

"2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində kənd təsərrüfatına dəymiş ziyanın aradan qaldırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrasına başlanılıb.

Sərəncama əsasən, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində kənd təsərrüfatına dəymiş ziyanın aradan qaldırılması üçün 1,4 milyon manat vəsait ayrılıb.

AZƏRTAC xəbər verir ki, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən qeyd olunan dövrdə Ermənistanın hərbi təcavüzü nəticəsində kənd təsərrüfatı fəaliyyətinə zərər dəymiş 980 nəfərin siyahısı müəyyənləşib. Zərərin predmeti kimi iri və xırdabuynuzlu heyvan, at, ev quşu, ot bağlaması, texnika, arı yeşiyi, qazılmış səngərlərə görə əkin sahələrinə dəymiş ziyan əsas götürülüb.

Siyahıya əsasən, hərbi təcavüz nəticəsində Bərdə rayonunda 9, Ağcabədidə 55, Füzulidə 23, Goranboy/Naftalanda 22, Ağdamda 268, Cəbrayılda 1, Gəncədə 1, Tərtərdə 601 fermerin əkin sahələrinə, kənd təsərrüfatı texnikasına, kənd təsərrüfatı məhsullarına, heyvanlarına zərər dəydiyi təsdiqlənib.

Zərərçəkmiş fermerlərin adlarına bank kartları açılıb, ayrılmış vəsait kartlara köçürülüb. Kənd təsərrüfatı fəaliyyəti ilə əlaqədar Ermənistanın hərbi təcavüzü nəticəsində zərər çəkən fermerlər bu gündən etibarən yaşadıqları ərazi üzrə "Kapitalbank" filiallarından bank kartlarını ala və köçürülmüş vəsaiti bankomatlarda nağdlaşdıra bilərlər.

Zərərin ödənilməsi ilə bağlı əlavə məlumat almaq istəyən vətəndaşların Kənd Təsərrüfatı Nazirliyinin 1652 nömrəli Çağrı Mərkəzinə müraciət etməsi xahiş olunur.

*Müdafiə Nazirliyi:*

# "Ermənistan tərəfi məqsədyönlü şəkildə vəziyyətin gərginləşdirilməsi üçün təxribatlara əl atır"

2020-ci il noyabrın 10-da Azərbaycan Respublikası Prezidenti, Rusiya Federasiyası Prezidenti və Ermənistan Baş nazirinin imzaladığı üçtərəfli Bəyanata uyğun olaraq, Ermənistan silahlı qüvvələrinin qalıqlarının tam şəkildə Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarılması təmin olunmayıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuata açıqlamasında bildirilib.

Açıqlamada deyilir: "Son günlər ərzində Ermənistanın üçtərəfli bəyanatı kobud şəkildə pozaraq öz silahlı qüvvələrinin şəxsi heyətini Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə daşıması, Muxtarkənd, Şuşakənd məntəqələri yaxınlığında, eləcə də Kəlbəcər və Laçın rayonlarının inzibati hüdudlarının şərq istiqamətindəki ərazilərdə yeni erməni postlarını qoyması halları müşahidə olunur.

Azərbaycan Ordusu tərəfindən adekvat tədbirlər görülür və bu kimi hallara imkan verilmir.

Ermənistan tərəfi məqsədyönlü şəkildə vəziyyətin gərginləşdirilməsi üçün bu kimi təxribatlara əl atır.

Bütün bunlar Ermənistanın yeni müdafiə naziri Arşak Karapetyanın Ermənistan ordusuna bütün vasitələrdən istifadə edərək güc tətbiq etmək barədə verdiyi məsuliyyətsiz və təhrikçi əmrinin fonunda baş verir. Xatırlatmaq istərdik ki, Ermənistanın sabiq müdafiə naziri David Tonayan da "yeni müharibələr, yeni ərazilər" adlandırdığı təxribatçı hərbi doktrina ilə çıxış etmişdi. Onun rüsvayçı aqibəti hər kəsə məlumdur.

Azərbaycan Ordusu tərəfindən bütün adekvat tədbirlərin görülməsi təmin olunacaqdır.

Rusiya Federasiyası sülhməramlı qüvvələri üçtərəfli bəyanatın müddəalarına uyğun olaraq müvəqqəti dislokasiya olunduqları Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin yerləşdirilməsi hallarına son qoymalıdır".

# Mövqelərimiz Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulub

Avqustun 11-i saat 01:05-də Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Dəmirçidam yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.



# Ankarada "Qafqaz Qartalı-2021" təlimlərində "Yüksəksəviyyəli müşahidəçi günü" keçirilib

Türkiyənin Xüsusi Təyinatlı Qüvvələr Komandanlığında keçirilən "Qafqaz Qartalı-2021" təlimləri başa çatıb. Avqustun 2-də start götürmüş təlimlərə Azərbaycan, Türkiyə və Gürcüstanın xüsusi təyinatlı qüvvələrinin hərbçiləri qatılıblar. Təlimlərdə Azərbaycan xüsusi təyinatlı qüvvələrinin hərbi qulluqçuları da iştirak ediblər.

Azərbaycanın Ankaradakı səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, təlimlərdə məqsəd Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlı qüvvələri arasında dostluq, əməkdaşlıq və qardaşlıq əlaqələrini inkişaf etdirməkdir.

Avqustun 11-də keçirilən "Yüksəksəviyyəli müşahidəçi günü"ndə Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları Eldəniz Namazov, Rafael Gözəlov, Anar Qasımov və Azərbaycanın Türkiyədəki hərbi attaşesi polkovnik Müşfiq Məmmədov iştirak ediblər.





*Baş Prokurorluq:*

# "Vətən müharibəsinin başa çatmasından dünənədək 23 mülki şəxs minaya düşərək həlak olub"

Azərbaycan Respublikasının Baş Prokurorluğu ötən il noyabrın 10-dan - Vətən müharibəsinin başa çatmasından bugünə qədər işğaldan azad edilən ərazilərdə minaya düşərək həlak olan və yaralanan mülki şəxslərin sayını açıqlayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin dövrdə mülki şəxslərdən 23 nəfər həlak olub. Bundan başqa, minaya düşmələri nəticəsində 36 mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

# "Davamlı İnkişaf Məktəbi" layihəsi çərçivəsində seminar təşkil olunub

Avqustun 11-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında partiyanın Gənclər Birliyinin "Davamlı İnkişaf Məktəbi" layihəsi çərçivəsində "Regional inkişaf proqramlarının qeyri-neft sektorunda yaratdığı perspektivlər" mövzusunda seminar keçirilib.



YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov tədbiri giriş sözü ilə açaraq mövzu barədə fikirlərini bölüşüb. Görüşün mövzusunun aktual olduğunu diqqətə çatdıran B.İslamov deyib ki, aparılan müzakirələr gənclərdə bu istiqamətdə yeni fikirlər formalaşdıracaq.

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili iştirakçıları salamlayaraq bildirib ki, ölkəmiz müasir inkişafı tarixində keşməkeşli bir dövr yaşayıb. Müstəqilliyin bərpa edildiyi ilk illərdə ölkənin iqtisadi potensialının olmaması, işsizliyin yüksək səviyyəsi, istehsalın dayanması Azərbaycanın iqtisadi cəhətdən zəifləməsinə yol açmışdı. 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi uğurlu neft strategiyasının nəticəsi olaraq "Əsrin müqaviləsi"nin imzalanması iqtisadi inkişafımızda yeni bir mərhələ yaratdı.

T.Mirkişili qeyd edib ki, həmin dövrdə ölkəmizə investisiya yatıran təşkilatlar və şirkətlər məhz Ulu Öndərin təminat verməsi ilə bu işə qoşulmuşdular. 1996-cı ildən ölkə iqtisadiyyatında mühüm sabitləşmənin başlandığını diqqətə çatdıran komitə sədri 2003-cü ildən artıq qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm addımların atıldığını deyib. Onun sözlərinə görə, 2003-cü ildə ölkə Prezidenti seçilən cənab İlham Əliyevin elan etdiyi ilk dövlət proqramı məhz regionların inkişafı ilə bağlı oldu. Həmin dövrdə ölkəmizin qarşısında regionların inkişafı ilə bağlı mühüm çağırışlar dayanırdı. Belə ki, ölkə üzrə istehlak olunan elektrikin həcmi təxminən 50 faizə qədər idi. Eləcə də ərazilərimizin təqribən 50 faizində qazlaşdırma ilə bağlı problemlər yaşanırdı. Bununla yanaşı, həmin dövrdə məcburi köçkünlərlə bağlı mühüm çətinliklər var idi. Azərbaycan dövləti son 15 il ərzində məcburi köçkünlərin rifahının yüksəldilməsinə 7 milyard manat vəsait xərcləyib. Beləliklə, 2004-cü ildən etibarən "Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" qəbul edildi və ötən dövr ərzində bu proqram 4 mərhələdə uğurla icra olunub. Hazırda 4-cü Dövlət Proqramı icra edilir. Qazanılan nəticələr isə olduqca yüksəkdir. Məsələn, ötən dövr ərzində iqtisadiyyatımızı 3,4 dəfə artırmışıq. Son 16 il ərzində Azərbaycanda əməkhaqqı 11, pensiya təminatı 8, kənd təsərrüfatı istehsalı 2, ölkənin ixrac potensialı isə 8 dəfə artıb. Əgər 2003-cü ildə Azərbaycanda yoxsulluq 49-50 faizə yaxın idisə, pandemiyadan əvvəlki dövrə qədər bu rəqəm 4-5 faizə qədər azalmışdı. 2003-cü ildə 50 faizə yaxın olan işsizliyin səviyyəsi 5-6 faizə enib. Bütün bu inkişaf məhz regional inkişafa hesablanan proqramların təsiri və nəticəsində əldə olundu. Bundan başqa, regionlarda yol infrastrukturunun əsaslı şəkildə yenilənməsi, iaşə obyektlərinin istifadəyə verilməsi, yeni məktəblərin tikilişi və əsaslı yenidənqurulması nəticəsində bölgələrimizin siması dəyişdi, müasirləşdi. Ötən dövr ərzində ölkəmizdə 8 hava limanı tikilib. Bu gün Azərbaycan aeroportların səviyyəsinə görə dünyada 11-ci yerdədir.

Komitə sədri bildirib ki, Azərbaycan əhalisinin təxminən 75 faizi regionlarda yaşayır. Məhz regional xarakterli dövlət proqramlarının uğurlu icrası regionların iqtisadiyyatdakı payını mühüm dərəcədə artırıb. Bununla yanaşı, son illərdə regionlarda yeni sənaye məhəllələrinin qurulması, kənd təsərrüfatının inkişafı insanların bölgələrə qayıdışında müsbət dinamika yaradıb.

"Artıq regionlarda 10 sənaye məhəlləsi, 32 böyük fermer təsərrüfatı, 43 aqropark yaradılıb ki, bu da kənd təsərrüfatının mühüm inkişafını təmin edib. Ən əsası biz bu inkişafa yeni innovativ texnologiyalara əsaslanaraq nail olmuşuq. Bu gün regional proqramların tətbiqində və icrasında innovativ texnologiyalardan, müasir yeniliklərdən olduqca geniş istifadə olunur. Nəzərə almalıyıq ki, 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilən torpaqlarımızda aparılan yenidənqurma və bərpa prosesi də məhz innovativ yeniliklərə əsaslanır. Zəngilanda həyata keçirilən "ağıllı kənd", "ağıllı şəhər" layihələri buna misaldır", - deyə T.Mirkişili əlavə edib.

Sonda tədbir iştirakçılarının çoxsaylı sualları cavablandırılıb.

# Paytaxtda abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Bakı şəhəri, Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi, Samir Cəfərov küçəsində yerləşən 4000 nəfərdən çox sakinin yaşadığı 1-13 saylı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin formalaşdırılması məqsədilə müxtəlif idman qurğuları, futbol meydançaları, şahmat meydançaları, uşaqlar üçün oyun meydançaları, velosiped yolu salınıb. Yeni həyətin ərazisində 12 ədəd söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, yeni liftlər, işıqlandırma dirəkləri, yanğın hidrantları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 30 ədəd ağac əkilib və 2500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# Misir və Livandan olan tədqiqatçılar Şuşa şəhərinə səfər ediblər

Misir və Livan tədqiqatçılarından ibarət nümayəndə heyəti işğaldan azad edilmiş ərazilərə səfər çərçivəsində avqustun 11-də Şuşa şəhərində olub.






AZƏRTAC xəbər verir ki, tədqiqatçıların şəhərlə tanışlığı tarixi Şuşa Bəyannaməsinin imzalandığı ərazidən başlayıb. Qonaqlara görkəmli bəstəkar, musiqişünas, ictimai xadim Üzeyir bəy Hacıbəyli, şairə, rəssam və ictimai xadim Xurşidbanu Natəvan, Xalq artisti Bülbülün güllələnmiş heykəllərini ziyarət edən tədqiqatçılara bu dahi şəxsiyyətlərin həyat və yaradıcılıqları haqqında məlumat verilib. Bildirilib ki, işğal illərində ermənilər həmin heykəlləri Ermənistana apararaq əritmək istəyiblər. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə heykəllər öz əvvəlki yerinə qaytarılıb.

Sonra qonaqlar "Xan qızı" bulağı və Qala divarları ilə tanış olublar. Bildirilib ki, Şuşa işğaldan azad olunandan qısa müddət sonra istifadəyə verilən "Xan qızı" bulağı şəhərin məşhur məkanlarından biridir. Xan qızı Xurşidbanu Natəvanın vaxtilə şəhərə çəkdirdiyi su xətti "Xan qızı" bulağı adı ilə məşhur idi. Ermənistanın işğalı altında olduğu müddətdə suyu quruyan bulaq yenə də sakinlər və şəhərin qonaqlarının istifadəsindədir. Qala divarları ilə tanışlıq zamanı vurğulanıb ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Misir və Livandan gəlmiş tədqiqatçılar Cıdır düzündə də olublar. Onlar Cıdır düzündən ətrafa açılan əsrarəngiz mənzərəni seyr ediblər. məlumat verilib ki, burada mütəmadi olaraq ənənəvi musiqi festivalları, el şənlikləri keçirilir.

Daha sonra Aşağı və Yuxarı Gövhərağa məscidlərini ziyarət edən tədqiqatçılara məlumat verilib ki, 30 illik işğal dövründə dini abidələr, o cümlədən bu məscidlər erməni vandallığına məruz qalıb. Şuşa işğaldan azad olunandan dərhal sonra bu məscidlərdə təmir-bərpa işlərinə başlanılıb.

Misir və Livan tədqiqatçılarının Şuşada son dayanacağı Qazançı kilsəsi olub. Onlara burada aparılan təmir-bərpa işləri barədə məlumat verilib. Qeyd olunub ki, işğaldan azad olunan ərazilərimizdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən nəhəng yenidənqurma işləri, o cümlədən Şuşada aparılan bərpa və quruculuq prosesi Şuşanın orijinal memarlıq üslubuna uyğun olaraq gerçəkləşdirilir. Həyata keçirilən işlər çərçivəsində Qazançı kilsəsi də bərpa edilir. Bu kilsənin 1868-1887-ci illərdə qədim zərdüşt məbədi üzərində inşa olunduğu diqqətə çatdırılıb.

## Sarsılmaz qardaşlıq və həmrəylik nümunəsi

# Heydər Əliyev Mərkəzinin binası üzərinə Türkiyənin bayrağı videoproyeksiya olunub

Meşə yanğınlarına qarşı mübarizədə Azərbaycanın dəstəyini nümayiş etdirmək məqsədilə avqustun 11-də Heydər Əliyev Mərkəzinin binası üzərinə Türkiyə Respublikasının bayrağı videoproyeksiya olunub.



AZƏRTAC xəbər verir ki, bu, "bir millət, iki dövlət" olan Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasındakı dostluğu, qardaşlığı, birliyi bir daha bütün dünyaya nümayiş etdirib.

Mərasimdə iştirak edən Türkiyənin Azərbaycandakı səfiri Cahid Bağçı jurnalistlərə müsahibəsində bildirib ki, yanğınların başlamasından keçən 14 gün ərzində Azərbaycan hər cür dəstəyini verib. İlk andan etibarən dəstəyini ürəkdən hiss etdirən Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq bildirən səfir deyib: "Azərbaycan iyulun 31-dən etibarən dəstək göndərməyə başladı. Hazırda 750 qardaşımız yanğınların söndürülməsinə cəlb olunub. Qardaşlarımız 14 gündür gecə-gündüz yanğınsöndürmə fəaliyyəti ilə məşğuldurlar. Hər birinə ayrı-ayrılıqda minnətdaram. Sağ-salamat ailələrinin, sevdiklərinin yanına gəlmələrini arzulayıram".

"Yanğınların 14-cü günündən dövlət başçısının tapşırığı ilə Türkiyənin dövlət bayrağı Heydər Əliyev Mərkəzinin üzərində dalğalanmaqdadır. Bu, anlamlı bir dəstəkdir. Bir daha təşəkkür edirəm. Qarabağ Zəfərindən sonra Azərbaycan bayrağı İstanbulda Boğaz körpüsündə, Çamlıca Qülləsində, Ankarada Ataqüllədə və Türkiyənin bir çox meydanında dalğalandırılıb. Zəfər coşqunuza Türkiyədən bütün şəhərlərlə birgə qoşulmuşduq. Sevinciniz sevincimiz olmuşdu. Bu gün kədərli bir gündəyik. Siz də kədərli günümüzdə yanımızda oldunuz", - deyən C.Bağçı buna görə də hər bir azərbaycanlıya ürəkdən təşəkkür edib.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov jurnalistlərə müsahibəsində deyib: "Azərbaycan və Türkiyə qardaş ölkələrdir. Həm xoş, həm kədərli, həm də çətin günlərdə bir-birimizin yanındayıq. 44 günlük Vətən müharibəsi dövründə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla türk qardaşlarımız bizə mənəvi, siyasi dəstək verdi, hər an bizim yanımızda oldular. Türkiyə Parlamentinin dostluq qrupu daim bura səfər etdi, haqq davamızda bizi dəstəklədi. Azərbaycan da Türkiyəni üzləşdiyi bu çətin gündə tək qoymadı. Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycan yanğınsöndürənləri qardaş ölkədə baş verən meşə yanğınlarının söndürülməsi üçün köməyə gediblər. Azərbaycanın xilasetmə qüvvələri yanğınla mübarizədə fədakarlıq nümayiş etdirdilər. Sevindirici haldır ki, yanğınların qarşısı alınmaq üzrədir. Bu gün Türkiyə Cümhuriyyətinin bayrağının Heydər Əliyev Mərkəzində işıqlandırılması çox böyük bir rəmzi məna daşıyır. Türk qardaşlarımıza keçmiş olsun deyir, Uca Yaradandan belə çətin günlərin bir daha təkrarlanmamasını arzulayırıq".

# Muğla böhran mərkəzində Türkiyədə baş verən yanğınlarla bağlı müşavirə keçirilib

Türkiyədə meşə yanğınları ilə mübarizədə səmərəliliyi artırmaq məqsədilə bu ölkənin Daxili İşlər Nazirliyinin Fəlakət və Fövqəladə Hallar Departamentinin (AFAD) nəzdində Muğla vilayətinin Marmaris rayonunda yaradılmış regional Fəlakət və Təcili İdarəetmə Mərkəzində avqustun 11-də müşavirə keçirilib.




AZƏRTAC xəbər verir ki, 26 işçi qrupun fəaliyyət göstərdiyi Fəlakət və Təcili İdarəetmə Mərkəzinin toplantısında Fövqəladə Hallar Nazirliyinin (FHN) Türkiyədəki qüvvələrinə rəhbərlik edən fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev, Türkiyənin daxili işlər naziri Süleyman Soylu, kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirli, ətraf mühit və şəhərsalma naziri Murat Kurum, nəqliyyat və infrastruktur naziri Adil Karaismailoğlu , Muğla valisi Orxan Tavlı, Ədalət və İnkişaf Partiyasının İstanbuldan olan deputatı Fatma Betül Sayan Kaya, Muğladan olan deputatlar Yelda Erol Gökcan və Mehmet Yavuz Demir və digər şəxslər iştirak ediblər.

Toplantıda mərkəzə cəlb edilmiş qrupların fəaliyyəti, bölgədəki meşə yanğınları ilə mübarizə istiqamətində görülən işlər, əməliyyatlarda istifadə edilən texniki vasitələr, həmçinin xilasetmə və təxliyə sahəsində həyata keçirilən tədbirlər haqqında ətraflı məlumat verilib. FHN-in yanğın-xilasetmə qüvvələrinin Türkiyədəki yanğın nöqtələrindəki fədakar fəaliyyəti yüksək qiymətləndirilib və gələcəkdə bu istiqamətdə görülə biləcək birgə işlər müzakirə edilib.

Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirli bildirib: "Meşə yanğınları ilə mübarizəmiz davam edir. Bizə yardım edən bütün dostlarımıza minnətdarıq. Ən böyük yardımı qardaşımız Azərbaycandan aldıq. Yanğınla mübarizədə verilən dəstəyə görə bütün azərbaycanlı qardaşlarımıza çox təşəkkür edirik".

Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırladan nazir Bekir Pakdemirli Azərbaycanın yanğınla mübarizəyə verdiyi dəstəyi, canlı qüvvə və texnikanı sadalayaraq vurğulayıb ki, göstərilən kömək əsl qardaşlıq nümunəsidir.

Qardaş ölkənin nəqliyyat və infrastruktur naziri Adil Karaismailoğlu deyib: "Ölkəmizin tariximizdə ən böyük yanğınlardan biri ilə günlərdir qarşı-qarşıya qalmışıq. Bu çətin günlərimizdə qardaş Azərbaycanı yanımızda görmək bizə çox böyük güc verdi".

Ətraf mühit və şəhərsalma naziri Murat Kurum isə iki qardaş ölkənin daim bir-birinin yanında olduğunu bildirib. O qeyd edib ki, Azərbaycan və Türkiyə qardaşlığı sonsuza qədər davam edəcək.

Muğla valisi Orhan Tavlı Azərbaycanın bu çətin günlərdə qardaş Türkiyənin yanında olduğu üçün minnətdarlıq hisslərini ifadə edib. Türkiyə və Azərbaycan yanğınsöndürənlərinin çiyin-çiyinə mübarizə aparmasından danışan vali qeyd edib ki, bu qardaşlıq bütün dünya üçün nümunədir.

Mehmet Yavuz Demir və Yelda Erol Gökhan azərbaycanlı qardaşların bu çətin günlərdə Türkiyənin yanında olduqlarını deyiblər.

Fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, qardaş Türkiyəyə gələn FHN-in yanğın-xilasetmə qüvvələrinin yanğınların söndürülməsi istiqamətindəki fəaliyyətindən danışıb. Nazir müavini yanğınların söndürülməsi və geniş ərazilərə yayılmasının qarşısının alınması istiqamətində aparılan birgə fəaliyyətin əhəmiyyətini vurğulayıb. O, Azərbaycandan olan yanğın-xilasetmə qüvvələrinin Türkiyədəki həmkarları ilə birlikdə üzərilərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldiklərini və bu istiqamətdə yorulmadan çalışdıqlarını deyib.

Nazir müavini qeyd edib ki, bu gün Köyceğiz və Bodrum ətrafında yanğınlar baş verib. Digər yanğınlar nəzarət altındadır. Artıq demək olar ki, Köyceğizdəki yanğınlar nəzarət altına alınıb.

General-leytenant avqustun 10-da olan son məlumatları diqqətə çatdıraraq bildirib: "FHN-in 500-ə yaxın əməkdaşı Yeniköy, Kəmərköy, Köyceğiz və İlanlı dağında xidmət aparıb. Bu ərazidə 77 yanğınsöndürmə avtomobili xidməti fəaliyyət həyata keçirib. Əməkdaşlarımız Köyceğizdə yanğın ocaqlarının soyudulması işlərini görüblər. Təsadüfən İlan dağı məntəqəsində yanğın başlayıb. Bizim orada 30-dan artıq avtomobilimiz və 150 nəfərə yaxın şəxsi heyətimiz var idi. Onların cəld müdaxiləsi nəticəsində yanğının böyük əraziyə yayılmasının qarşısı alınıb. Əgər yanğının sondürülməsində bir az yubanma olsaydı, bunun qarşısını almaq çox çətin olacaqdı".

Nazir müavini deyib: "Şəhər, rayon və kəndlərdə Azərbaycan yanğınsöndürənlərinə çox gözəl münasibət var. Bu, bizim üçün həm də bir təcrübə oldu. Biz daim Türkiyənin yanındayıq. Yaşasın Türkiyə Azərbaycan qardaşlığı!"

Tədbirin sonunda mətbuat nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

Xatırladaq ki, baş verən meşə yanğınlarının söndürülməsi üçün hazırda Türkiyədə FHN-in 743 əməkdaşı fəaliyyət göstərir. Bundan başqa, 97 texnika, o cümlədən 77 yanğınsöndürmə, 6 nasos avtomobili, 1 yanacaqdoldurma çəni, 4 qərargah avtomaşını, 2 avtobus və 1 pikap, eləcə də köməkçi texniki vasitələr, "BE-200ÇS" tipli amfibiya təyyarəsi və 1 helikopter Türkiyədə meşə yanğınlarının söndürülməsinə cəlb olunub.

# Dost çətin günlərdə tanınır

Əvvəli 1-ci səh.

Prezident İlham Əliyev yanğınların söndürülməsində və onların törətdiyi fəsadların qarşısının alınmasında Azərbaycanın Türkiyənin yanında olduğunu bildirdi və həmrəyliyini ifadə edib.

Prezident Rəcəb Tayyib Ərdoğan başsağlığına və meşə yanğınlarının ilk günlərindən Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycanın yanğınların söndürülməsində Türkiyəyə göstərdiyi dəstəyinə görə təşəkkürünü bildirib. O, Azərbaycandan olan FHN əməkdaşlarının yanğınsöndürmə əməliyyatlarında yüksək peşəkarlıq və sevgi ilə iştirak etdiyini vurğulayıb.

Bir daha xatırladaq ki, hələ iyul ayının 30-da respublikamızın yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət birinci qrup Türkiyəyə yola düşüb. İyulun 31-də Fövqəladə Hallar Nazirliyinin (FHN) 1 helikopter, 53 yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, 1 tibbi yardım avtomobili, 220 yanğınsöndürən və xilasedicidən ibarət ikinci qrupu qardaş ölkəyə yola salınıb. Qrup Gürcüstandan keçməklə iki sutka ərzində Marmarisə çataraq birinci qrupun üzvlərinə qoşulub. Avqustun 5-də səhər saatlarında FHN-in "BE-200ÇS" tipli amfibiya təyyarəsi qardaş ölkəyə yola düşüb. Həmin gün FHN-in 40 yanğınsöndürmə texnikası və 160 yanğınsöndürəndən ibarət üçüncü yanğın-xilasetmə qrupu da Türkiyəyə yola salınıb. Avqustun 6-da axşam saatlarında FHN-in yanğın-xilasetmə qüvvələrinin 200 nəfərdən ibarət dördüncü qrupu təyyarə ilə Türkiyəyə gedib.

### 743 əməkdaş, 97 texnika

Ümumilikdə Türkiyədə FHN-in 743 əməkdaşı fəaliyyət göstərir. 97 texnika, o cümlədən 77 yanğınsöndürmə, 6 nasos avtomobili, 1 yanacaqdoldurma çəni, 4 qərargah avtomaşını, 2 avtobus və 1 pikap, eləcə də köməkçi texniki vasitələr, "BE-200ÇS" tipli amfibiya təyyarəsi və 1 helikopter Türkiyədə meşə yanğınlarının söndürülməsinə cəlb olunub.

Yanğınsöndürənlərimiz təyinat nöqtələrində yanğınların söndürülməsində fədakarlıqla çalışırlar. Sosial şəbəkələrdə, Türkiyə KİV-inin reportajlarında Azərbaycan yanğınsöndürənlərinin qardaş ölkəyə gəlişi, o cümlədən yanğınların söndürülməsində göstərdikləri fədakarlıqlarla bağlı yayılan görüntülər hər birimizi dərindən qürurlandırır. Onların öz missiyalarını peşəkarlıqla yerinə yetirmələri Türkiyə ictimaiyyətində yüksək təqdir olunur. Yanğınsöndürənlərimizin peşəkarlığı sayəsində bir çox istiqamətlərdə təhlükənin qarşısı alınıb.

Azərbaycanın Türkiyəyə göstərdiyi yüksək dəstəyin təməlində həm də ölkəmizdə fövqəladə hallar orqanlarının inkişafı sahəsində görülən işlər dayanır. Fövqəladə hallara qarşı daha səmərəli mübarizə, ölkəmizin, vətəndaşlarımızın və ətraf mühitin təhlükəsizliyinin təminatı Prezident İlham Əliyevin inkişaf siyasətinin əsas leytmotivlərindən biridir. Bu siyasətin nəticəsi kimi fövqəladə hallar orqanları ötən illərdə böyük inkişaf yolu keçib, maddi-texniki bazaları möhkəmləndirilib, qurumların və əməkdaşların peşəkarlığı yüksəldilib. Bu gün Azərbaycanın qardaş Türkiyəyə yanğınların söndürülməsi ilə bağlı göstərdiyi dəstəyin kökündə də respublikamızda fövqəladə hallar orqanlarının mükəmməl maddi-texniki imkanlara malik olması dayanır. Təbii ki, respublikamızın belə bir potensiala sahib olması hər birimizdə qürur hissi doğurur.

Azərbaycanla Türkiyə arasında sarsılmaz dostluq və qardaşlıq münasibətləri hökm sürür. Hər iki xalq istər xoş günlərdə, istərsə də çətin, ağır vaxtlarda birlik nümayiş etdirib, bir-birinin sevinc-fərəhini, kədərini bölüşüb. Xalqlarımız bütün sahələr üzrə beynəlxalq aləmdə qazandıqları uğurlarına sevinib, qürur hissi keçiriblər.

Türkiyədə baş verən dəhşətli meşə yanğınları fonunda bu münasibət özünü bir daha göstərdi. Azərbaycan Türkiyənin çətin günündə onun yanındadır. Təhlükə tam aradan qaldırılana qədər yanğınsöndürənlərimiz mübarizə aparacaqlar və əlbəttə ki, qürur hissi ilə Azərbaycana qayıdacaqlar. Bütün bunlar Azərbaycanın Türkiyə qardaşlığını bir daha dünyaya çatdıracaq. Qardaş Türkiyə Azərbaycanla birlikdə bu sınaqdan da alnıaçıq çıxacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***






# Gənclik






● 12 Avqust Beynəlxalq Gənclər Günüdür



**"…Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".**

**İlham ƏLİYEV**

# Düzgün siyasət və vətənpərvər gənclik

## Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin ən mühüm istiqamətlərindən biri Azərbaycan gəncliyinə aiddir

**Gənclər siyasəti ümumi dövlət siyasətinin mühüm sahəsi kimi daim diqqətdədir. Ölkəmizdə gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, yenilikçi ideyalarının reallaşdırılması, ictimai-siyasi həyatda rolunun artırılması istiqamətində bütün addımlar atılır, lazımi şərait yaradılır. Müstəqilliyin bizə qazandırdığı ən böyük töhfələrdən biri də gənc nəslin milli ruhda tərbiyəsi, hərtərəfli inkişafı üçün yaranmış mühitdir. Bu mühiti Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi siyasət formalaşdırıb. Prezident İlham Əliyev isə bu siyasəti daha da inkişaf etdirməkdədir.**

### *Gələcəyə aparan yol*

1996-cı ilin 2 fevral günü... Bakının ən böyük toplantı məkanlarından olan Heydər Əliyev Sarayında Azərbaycan gənclərinin ilk forumu keçirilirdi. Ulu Öndərin təşəbbüsü ilə təşkil edilmiş toplantıda Heydər Əliyev iştirak edirdi. Burada o dövr üçün Azərbaycan gəncliyini narahat edən bir çox məsələlər qaldırılır, müstəqillik dövründə onların qarşısında duran vəzifələr müəyyənləşdirilirdi. Ulu Öndər gələcəyə strateji baxışı ilə Azərbaycan gəncliyinə öz zəruri tapşırıq və tövsiyələrini verirdi. Bu müraciətin əsas qayəsini Vətənə sevgi, Azərbaycan dövlətinin maraqlarını bütün şəraitlərdə qorumaq, ölkəyə və cəmiyyətə faydalı olmaq üçün özünü daim inkişaf etdirmək, müasir dünyanın çağırışlarını nəzərə almaq, fiziki və mənəvi sağlamlıq məsələlərinə diqqət təşkil edirdi. Forumdan bir il sonra isə 1997-ci ilin 1 fevralında Ümummilli Lider Heydər Əliyev 2 fevralın Azərbaycanda gənclər günü elan edilməsi haqqında sərəncam imzaladı.

Gənclər günü bütün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq məhz Azərbaycanda qeyd olundu. 1996-cı ildən etibarən respublikamızda belə bir ənənə formalaşdıqdan sonra digər MDB ölkələrində və Şərqi Avropa dövlətlərində də gənclər gününün qeyd edilməsinə başladılar. Dünyada isə yalnız 1998-ci il avqustun 8-dən 12-dək Lissabonda keçirilən konfransda BMT-nin qərarı ilə avqustun 12-si Beynəlxalq Gənclər Günü elan edildi.

### *Gənclər hər zaman öndədir*

1996-cı ildə ölkə ağır problemlərlə üz-üzə idi. Heydər Əliyevin gənclər məsələsinə bu qədər önəm verməsi tarixi şəraitdən və Ulu Öndərin bir dövlət adamı kimi müdrikliyindən, uzaqgörənliyindən irəli gəlirdi. Heydər Əliyev gəncliyin hər bir cəmiyyət üçün nə qədər mühüm önəm daşıdığını bilirdi. Fərqində idi ki, gəncliyi - gələcəyə hədəflənmiş milli ideyalar ətrafında bir araya gətirmədən bu hədəflərə çatmaq mümkün deyil. Hər bir ölkənin gəncliyi onun gələcəyidir. Bu həqiqətləri Heydər Əliyev o dövrdə siyasi arenada olan hər kəsdən və hamıdan daha yaxşı bilirdi. Ona görə ki, ötən əsrin 80-ci illərinin sonlarında canı-qanı bahasına Vətənin müstəqilliyinə nail olan Azərbaycan gəncliyini də hələ 1970-ci illərdə ölkəyə rəhbərliyi zamanı özü yetişdirmişdi. Böyük rəhbərin gərgin əməyi sayəsində gənclərin məişət, təhsil, mədəni tələbatının ödənilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər görülürdü. Heydər Əliyev vətənpərvər, yüksək təhsilli, əməksevər, intellektual, gələcəyə inanan və doğma yurdun gələcəyini daha gözəl görmək istəyən, bunun üçün çalışan gənclik timsalında müstəqil dövlətimizin bünövrəsini formalaşdırırdı. Təkcə bir faktı xatırlatmaq kifayət edər ki, Heydər Əliyev hər il minlərlə gənci SSRİ-nin qabaqcıl ali təhsil müəssisələrində ölkəmiz üçün xüsusilə vacib ixtisaslar üzrə oxumağa göndərirdi. Biliyi, təhsili, intellektual sərvəti Azərbaycanın ən ucqar bölgələrində, təhsil mühitindən kənarda yaşayan insanlar üçün də qiymətli bir dəyərə çevirməyi bacarmışdı.

Müstəqillik illərində Azərbaycanın əsas kadr potensialını da məhz Heydər Əliyevin yetişdirdiyi mütəxəssislər təşkil edirdi. Ulu Öndərin yetirmələri olan, onun vətənpərvərlik məktəbindən öyrənən gənclik ötən əsrin 80-ci illərinin sonlarında Azərbaycanın istiqlalı uğrunda ayağa qalxdı. Ümummilli Lider Heydər Əliyev 1993-cü ilin 15 iyununda hakimiyyətə qayıdışından sonra dövlət gənclər siyasətinin vahid koordinasiya edilərək mərkəzləşmiş qaydada icrası üçün xüsusi sərəncam verərək Gənclər və İdman Nazirliyi yaradıldı. Gənclər siyasəti ilə bağlı mühüm qərarlar verildi. "Gənclər siyasəti haqqında" qanun qəbul olundu.

Ümummilli Lider gənclərlə keçirdiyi mütəmadi görüşlərlə onlara nə qədər böyük dəyər verdiyini, gəncləri maraqlandıran məsələləri daim diqqətdə saxladığını, gənc nəslin gələcəklə bağlı ideyalarının, hədəflərinin mühümlüyünü göstərirdi. Onların mənəvi və fiziki sağlamlığının, vətənpərvərlik ruhunda tərbiyəsinin, milli dəyərlərimizə bağlılığının nə qədər həyati vacib məsələ olduğunu bildirir, öz yanaşmaları ilə gənclərə şəxsi nümunə olurdu. Bu kurs zamanın çağırışlarına uyğun olaraq Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən daha böyük əzmlə həyata keçirilir. Dövlət başçısı Azərbaycanın qüdrətli dövlətə çevrilməsi naminə apardığı fəaliyyətdə gənclərə böyük inam bəsləyir. Gəncliyin inkişafı üçün lazımi şəraitin yaradılması istiqamətində məqsədyönlü addımlar atır.

### *Gənclərə böyük inam var*

Azərbaycan Prezidentinin formalaşdırdığı dövlətçilik strategiyası hər bir gənci dövlətin əsas hədəfinə - ərazi bütövlüyümüzün bərpa olunmasına istiqamətləndirmişdi. Torpaqlarımızın azadlığını ümummilli hədəfə çevirmişdi.

Prezident İlham Əliyev çıxışlarında nəsillərarası münasibətə, qırılmaz bağlılığa toxunur, təcrübə ilə dinamizmin, çevikliyin vəhdətinin Azərbaycanı öz hədəflərinə daha da yaxınlaşdıracağını bəyan edirdi. Vətən müharibəsindəki qələbəmiz bunun tarixi sübutu, xalqın liderinin uzaqgörənliyinin təntənəsi oldu.

Bu savaşda Azərbaycan gəncliyi nə qədər vətənpərvər, cəsarətli və güclü olduğunu göstərdi. Ona bu gücü verən, özünəinam hissini təlqin edən əsas amil isə Vətən, torpaq sevgisi idi. Ordumuzun nümayiş etdirdiyi misilsiz qalibiyyətinin də sirri elə Vətən sevgisindədir. Bu sevgi bizi Qələbəyə qovuşdurdu. Tarixi Zəfərimizin əsas amilinə çevrildi.

### *Müqəddəs amal*

Vətən müharibəsində Azərbaycan gəncliyini sanki yenidən tanıdıq. Azərbaycanda nə qədər vətənpərvər, cəsur, qəhrəmanlıq ruhu ilə dolu, bir o qədər də savadlı, sağlam düşüncəli gəncliyin yetişdiyinə hər birimiz şahid olduq. Qələbənin əldə olunmasında cəmiyyətin bütün sosial qruplarından olan insanların fədakar əməyi var. Amma əsas yük əlində silah, qəlbində Vətən sevgisi ilə yağı düşmənin üzərinə atılan gənclərimizin üzərinə düşdü. Buna görə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qələbədən sonra Şuşaya ilk səfəri zamanı qazanılmış zəfərdə gənclərimizin rolunu xüsusi vurğuladı. Vətənpərvərlik ruhu da budur!

Bütün müharibələr böyük bir tarixdir, burada iştirak etmiş döyüşçülərin xatirələridir. Qələbə ilə başa çatmış müharibə xalqın qürur hekayəsidir. Bu xatirələr Azərbaycan gəncliyinin vətənpərvərlik ruhunu daha da yüksəldəcək. Axı Vətən müharibəsindəki qələbəmiz həm də gəncliyin qələbəsidir. Gələcəyin keçmiş üzərindəki qələbəsi... Onu müasir dövrün yetişdirdiyi gənclik qazandı.

Azərbaycan gəncliyi dövlət rəhbərimizin onlara xitabən vurğuladığı "Gənclər, mən sizə inanıram, güvənirəm" fikrindən güc alacaq və Vətən tarixinin yeni şanlı səhifələrini yaradacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

● Gələcəyə dəstək

# Gənclər dövlətin qayğısına öz potensialları ilə cavab verirlər

## 44 günlük Vətən müharibəsində də bu özünü təsdiqlədi

**Tarixin bütün mərhələlərində hər bir dövlətin inkişafı onun bilikli, savadlı, intellektual potensiala malik olan gəncliyinin düşüncəsindən, əməli fəaliyyətindən asılı olub. Dövrün, günün çağırışlarını nəzərə alan, yaranmış yeni imkanlardan yetərincə istifadə etməyə üstünlük verən cəmiyyətlər həmişə irəli gedərək tərəqqi tapıblar.**



Kəlbəcər Rayon Gənclər və İdman İdarəsinin rəisi Musa Məmmədov deyir ki, Azərbaycan Prezidenti İlham Əliyevin son 17 illik fəaliyyətinin ən böyük uğurlarından biri də ölkədə milli ideyanın formalaşmasıdır. Bu gün həyata keçirilən siyasətin başlıca məqsədi modernləşmə mərhələsini də sürətlə başa vuraraq, Azərbaycanı hərtərəfli inkişaf etmiş ölkələr səviyyəsinə yüksəltmək, demokratik ideyaların cəmiyyətdə tam möhkəmlənməsinə nail olmaq, yeni düşüncəli vətəndaş yetişdirməkdir.

### *Yeni düşüncəli vətəndaş yetişdirmək zərurəti*

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti bu gün uğurla davam etdirilir. Həmin siyasət Azərbaycan gəncliyinin inkişafına mühüm təkan verir. Bu, gənclərin özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynayır.

Konkret olaraq kəlbəcərli gənclərin yürüdülən dövlət gənclər siyasətindən bəhrələnməsinə gəlincə, Musa Məmmədov bildirdi ki, bu istiqamətdə Prezident İlham Əliyevin 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" imzaladığı sərəncam mühüm sənədlərdən biridir. Həmin proqram çərçivəsində görülən işlər gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi yönündə ciddi irəliləyişə gətirib çıxarıb: "Bu sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsində kəlbəcərli (artıq məcburi köçkün sayılmayan) gənclər də fəallıqları ilə seçilirlər. Prezident İlham Əliyevin bu sahəyə olan diqqəti özünü 2007-ci ilin "Gənclər ili" elan edilməsində də göstərdi. Belə ki, həmin ildə dövlət başçısı "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Sərəncam imzaladı. Bununla 5000 gəncin dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi nəzərdə tutulmuşdu. 2011-ci ilin 6 aprelində isə Prezident "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı haqqında Sərəncam imzaladı. Gənclərin hərtərəfli inkişafını, cəmiyyət həyatında fəal iştirakını bir qədər də stimullaşdırmaq məqsədi ilə dövlət başçısı 19 dekabr 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması barədə sərəncam verdi. Gənclərə dəstək istiqamətində qəbul edilən mühüm qərarlardan biri də Azərbaycan Prezidentinin ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi ilə bağlı imzaladığı sənəddir.

### *44 günlük Vətən müharibəsi və kəlbəcərli gənclər*

Gənclərdə vətənpərvərlik hissini gücləndirmək məqsədilə Kəlbəcərdə müxtəlif tədbirlər keçirilir. Onlardan biri də gənclərin hərbi xidmətə yola salınması mərasimlərində Qarabağ müharibəsi veteranları ilə görüşlərin təşkilidir: "Ötən il 44 günlük Vətən müharibəsinin istər qazilərinin, istərsə də şəhidlərinin əsasən gənclərdən ibarət olması bir daha ölkədə vətənpərvərlik hisslərinin güclü olduğunu ortaya qoydu. Kəlbəcərli gənclər də bu qələbədə öz sözlərini deməyi bacardılar. Birinci Qarabağ savaşında olduğu kimi, Vətən müharibəsində də onlar düşmənə sarsıdıcı zərbə vurulmasında üzərlərinə düşən borcu layiqincə yerinə yetirdilər. Bunun nəticəsidir ki, minlərlə könüllü gəncimiz hərbi çağırış məntəqələrində növbəyə yazılaraq ön cəbhəyə getməyi təkidlə tələb edirdi. Kəlbəcər də torpaq uğrunda igid, qorxmaz, cəsur oğullarını qurban verdi. 91 nəfər kəlbəcərli gənc müxtəlif dərəcədə yaralandı. Vətən müharibəsində 32 hərbi, 3 mülki şəhid verən Kəlbəcər də düşmən tapdağından azad olundu".

"Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı"nın müddəalarına əsasən, narkomaniya və digər psixoaktiv maddələrin mənfi təsiri və sağlam qidalanma mövzusunda Kəlbəcər məktəblərindən 112 şagirdin iştirakı ilə keçirilən görüş də yaddaqalan olub. Ağdam rayonunun Quzanlı qəsəbəsində gənclər arasında keçirilən XI Azərbaycan Çempionatının zona mərhələsində Kəlbəcər rayonunun gəncləri də iştirak ediblər. HXÇDX-nin rayon bölməsində hərbi təhsil müəssisələrinə və zabitlik peşəsinə gənclərin həvəsləndirilməsi məqsədilə dəfələrlə görüşlər keçirilib.

Mühüm faktlardan biri də Bakı şəhərində gənclər arasında keçirilən kompüter oyunları üzrə XIII Azərbaycan Milli Çempionatının zona mərhələsi idi. 12 rayon komandası arasında keçirilən həmin yarışda kəlbəcərli gənclər II yerə layiq görülərək Gənclər və İdman Nazirliyi tərəfindən diplomla təltif ediliblər.

Xatırladaq ki, bu il Kəlbəcər rayonu üzrə 1326 məzundan 1310 nəfəri orta təhsil haqqında attestatla təmin edilib. Builki məzunların ali və orta ixtisas məktəblərinə qəbul üçün sənəd verənlərin əksəriyyəti seçdikləri ixtisasın keçid balını xeyli arxada qoyublar. Sevindirici haldır ki, builki məzunlarımız da ötənilki 44 günlük Vətən müharibəsində qazandığımız şanlı qələbəmizə sanki öz bilik töhfələrini veriblər: 500-dən yuxarı bal toplayanların sayı daha çox olub.

Hələ 2019-cu ildə YAP Kəlbəcər Rayon Gənclər Təşkilat ilə birgə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə "Qarabağ Azərbaycandır!" yürüşündə 50-dən çox fəal kəlbəcərli gənc də iştirak edib.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

● Qazilərimiz



# Baş atıcının döyüş şücaəti

**İkinci Qarabağ savaşının iştirakçısı, qazi Vaqif Əlizadə ilə ötən il sentyabrın 21-də Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsində toplanış zamanı tanış olmuşdum. Bu vaxt onu da müşahidə etdim ki, Ermənistan silahlı birləşmələrinin Azərbaycan ərazisinə hücumunun qarşısını almağa, torpaqlarımızı işğaldan azad etməyə gedən yüzlərlə könüllü arasında digər millətlərə məxsus gənclər də çoxdur. Qəzetimizə müsahibə verən Dmitri Vyaçeslaviçin oğlu Andrey Antonov, anası rus (Svetlana xanım), atası azərbaycanlı Məhəmməd İbayev, eləcə də atası azərbaycanlı, anası rus (Lyubov xanım) olan Vaqif Əlizadə və başqaları buna bariz nümunədir.**

Qazi Vaqif Vaqif oğlu Əlizadə 1995-ci il sentyabrın 9-u Bakıda anadan olub. Orta təhsilini Bakı şəhəri Yasamal rayonundakı 60 nömrəli məktəbdə başa vurub. 2013-2017-ci illərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində ali təhsil alıb, Geoloji kəşfiyyat fakültəsini bitirib. 2017- 2018-ci illərdə Şəmkirdə "N" saylı hərbi hissədə əsgəri xidmətdə olub.

Vaqif Əlizadə 2020-ci il sentyabrın 27-də Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsinə yollanan ilk könüllülərdəndir.

Bir həftəlik təlimlərdən sonra yaxın qohumu - Füzulidən olan Pərviz Mürşüdzadə, Mürşüd Mürşüdzadə və digərləri ilə döyüş bölgəsinə yollanan Vaqif deyir ki, müharibəyə Füzulidən başladıq. Mən taborda baş atıcı idim. Döyüşə gəlməyimə, bu torpaqların erməni işğalından azad olunmasında iştirakıma, hətta yeri gəlsə, şəhid olacağıma belə sevinirdim. Çünki atam Füzulidəndir, söhbətlərində bu yerlərdə ermənilərin onların ailələrinə, həmkəndlilərimizə etdikləri qətliamlar, terror hadisələri barədə o qədər yanğı ilə, intiqam hissilə danışırdı ki, indi doğma torpaqlarda vuruşmaqdan qürur duyurdum. Atamın arzusunu yerinə yetirmək, əzizlərinin intiqamını erməni quldurlarından almaq üçün qorxu hissini tamamilə unutmuşdum.

Vaqifin də tərkibində olduğu hərbi hissə Füzulidən sonra Cəbrayıl istiqamətində hərəkətə keçib. Baş atıcı Vaqif Əlizadə deyir ki, taborda Dmitri Sonçov, Denis İvanov, Timur (soyadını unutmuşam) və digər rus əsilli könüllülər erməni riyakarlığına, erməni vandalizminə qarşı canla-başla vuruşurdular. Bir neçə günün ərzində Cəbrayıldakı erməni istehkamlarını, hərbi hissələrini darmadağın etdik, çoxlu hərbi texnika və silah-sursat qənimət götürdük. Məni heyran edən o idi ki, Ali Baş Komandanın uğurlu rəhbərliyi nəticəsində ərazilərimizi erməni silahlı quldurlarından azad etdikcə, əsgərlərdə irəliyə getmək, Vətən torpağının hər qarışı uğrunda mübarizə aparmaq həvəsi artırdı.

Baş atıcı Vaqif Əlizadə Cəbrayılın düşməndən azad edilməsindən sonra Şuşa istiqamətində gedən döyüşlərin iştirakçısı olur. Oktyabrın sonuncu günü yaxınlığına qəfil düşən erməni mərmisindən bir neçə döyüşçü yoldaşı həlak olur, Vaqif isə huşunu itirir, hər iki qulağının pərdəsi dağılır. Əsgər yoldaşları vasitəsilə tibb məntəqəsinə çatdırılır, ilkin tibbi yardım göstərilir. Lakin vaziyyəti ağır olduğundan oradan Füzuli rayonu ərazisindəki Əhmədbəyli hospitalına gətirilir. O, burada bir neçə gün müalicə aldıqdan sonra Bakı şəhərinə, hərbi hospitala göndərilir. İlk günlər anlamsız olan Vaqif Əlizadə həkimlərin qayğı və köməyi sayəsində özünə gəlir, tam müalicə olunur.

Qazi Vaqif Əlizadə Vətən müharibəsində göstərdiyi şücaətlərə görə Azərbaycan Prezidenti, Ali Baş Komandanın sərəncamı ilə "Cəbrayılın azad edilməsinə görə" və "Şuşanın azad edilməsinə görə" medalları ilə təltif edilir. Hazırda aparıcı şirkətlərin birində - "Bestcomp Group"da çalışır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

● Gənclik və idman

**Bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Azərbaycan gəncliyinin idman sahəsində də irəliləməsi, uğurlar qazanması üçün hər cür şərait yaradılıb. Son 18 ilin idman yekunlarına nəzər saldıqda bunu aydın görmək mümkündür.**



# Bayrağımızı qaldırmaq və himnimizi səsləndirmək

## *Bu, hər bir gənc idmançımızın müqəddəs arzusudur*

Sözsüz ki, gənclərimizin yüksək nailiyyətlər qazandığı yarışlar sırasında ən nüfuzlusu 4 ildən bir keçirilən kütləvi idman mübarizəsi - Yay Olimpiya oyunlarıdır. Təkcə bir faktı xatırlatmaq kifayətdir: son 7 olimpiadada iştirak edən idmançılarımız ümumilikdə 51 medal qazanıblar.

Tokioda təşkil edilən sonuncu Yay Olimpiya Oyunlarında Azərbaycan 44 idmançı ilə təmsil olunmuşdu. Atletlərimiz turniri 3 gümüş və 4 bürünc medalla başa vurdular. Medal qazanan gənc idmançılarımızdan biri də sərbəst güləşçimiz Hacı Əliyev oldu.

Sərbəst güləş üzrə 65 kq çəki dərəcəsində yarışan Hacı Əliyev mübarizəyə 1/8 final mərhələsindən başlamışdı. İlk rəqibi seneqallı Adama Dyatta idi. Güləşçimiz rəqibini xalçaya çıxmağa peşman etdi - 4:0. Hacı 1/4 finalda Daulet Niyazbekovla (Qazaxıstan) qarşılaşdı və 9:1 hesabı ilə qələbə qazanaraq yarımfinala yüksəldi. O, bu mərhələdə hindistanlı Bayranq Punişa ilə görüşdü və uğurlu seriyanı davam etdirdi. Pəhləvanımız 12:5 hesablı qələbə sayəsində finala vəsiqə qazandı.

Tokioda Azərbaycan millisinin heyətində həlledici görüşə yüksələn ilk idmançımız qızıl medal üçün yaponiyalı Takuto Otoquro ilə güləşdi. Təəssüf ki, görüş rəqibin minimal üstünlüyü - 5:4 hesablı qələbəsi ilə yekunlaşdı. Nəticədə Hacı çıxışını gümüş medalla başa vurdu.

Qeyd edək ki, Hacı Əliyev 1991-ci il aprelin 21-də Naxçıvan şəhərində anadan olub. İlk dəfə beynəlxalq miqyaslı yarışlarda 2010-cu ildən iştirak etməyə başlayıb. 2014-cü, 2015-ci və 2017-ci illərdə dünya çempionatlarının qızıl medallarını qazanıb və bununla güləş tariximizin yeganə üçqat dünya çempionu olub. Amma bu da Hacının uğurlarının hamısı deyil. O, 2014-cü il Avropa çempionatının qızıl, ondan bir il sonra isə bürünc mükafatını qazanıb. 2013-cü ildə Kazanda (Rusiya) təşkil olunan Universiadanı isə 3-cü yerdə başa vurub.

Hacı Əliyev həm də "Rio-2016" Olimpiya Oyunlarının bürünc mükafatçısıdır. Bakıda keçirilən I Avropa Oyunlarında bürünc medala sahib olan idmançımız dörd il sonra "Minsk-2019"da aktivinə qızıl medal yazdırıb. O, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının da çempionu adını qazanıb.

Göründüyü kimi, Azərbaycan dövləti idmançılara hərtərəfli qayğıkeşlik və diqqət göstərdiyi kimi, gənclərimiz də bu etimadı doğrultmaq üçün əllərindən gələni əsirgəmirlər. Bunu Hacı Əliyevin idman bioqrafiyası da sübut edir. Amma Hacı tək deyil, beynəlxalq yarışlarda Azərbaycanın bayrağını qaldıran, himnini səsləndirən onlarca gənc idmançımız var.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***




# İqtisadi inkişaf və sosial rifah




## Qeyri-neft sektoru üzrə ixracda yüksək artım müşahidə edilib

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) təqdim etdiyi "İxrac icmalı"nın avqust sayına əsasən, cari ilin ilk 7 ayı ərzində Azərbaycanın ixracının dəyəri 11,4 milyard, o cümlədən qeyri-neft sektoru üzrə 1,4 milyard dollar təşkil etmişdir.**

Qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 316,7 milyon dollar dəyərində və ya 30,5 faiz artmışdır. Ötən 7 ay ərzində qeyri-neft məhsulları ixracında meyvə-tərəvəz məhsulları 338 milyon dollar dəyərlə əsas paya malik olmuşdur. Həmin dövr ərzində bu sektor üzrə ixracda qara metallar və onlardan hazırlanan məmulatlar 2,4, pambıq iplik 2,8, şəkər 2,3 dəfə, kimya sənayesi məhsulları 37, pambıq lifi 88,5, alüminium və ondan hazırlanan məmulatlarda isə 42 faiz artım qeydə alınmışdır.

İİTKM-in məlumatında həmçinin ötən ay üzrə məlumatlar verilmişdir. Qeyd olunur ki, iyul ayı üzrə ixracın dəyəri 2,6 milyard dollar olmuşdur. Qeyri-neft sektoru üzrə ixracda artım 55,7 faiz təşkil etməklə 192 milyon dollarlığa çatmışdır. Ötən ay yeyinti məhsulları üzrə ixrac ötən ilin müvafiq ayı ilə müqayisədə 6 faiz artaraq 43 milyon, qeyri-yeyinti məhsulları üzrə isə 80,1 faiz artaraq 149 milyon dollarlıq olmuşdur.

## Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsi ilə 20,3 milyon tondan çox yük daşınıb




Dövlət Statistika Komitəsi Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsi ilə yük daşımaları haqqında rəqəmlər açıqlayıb.

Bildirilir ki, cari ilin yanvar-iyun aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 20 milyon 325,2 min ton, yük dövriyyəsi isə 4 milyard 781,8 milyon ton-km olmuşdur. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 6,3 faiz və 2 faiz azalma müşahidə edilmişdir.

Yüklərin 11407 min tonu və ya 56,1 faizi avtomobil nəqliyyatı, 6598,6 min tonu və ya 32,5 faizi dəmir yolu nəqliyyatı, 2319,6 min tonu və ya 11,4 faizi dəniz nəqliyyatı ilə daşınmışdır.

Dəhliz vasitəsilə daşınmış yüklərin 22,9 faizini və ya 4652,6 min tonunu tranzit yüklər təşkil etmişdir.

## İnvestisiya xərcləri üçün nəzərdə tutulan vəsaitin 2,6 milyard manatı layihələr üzrə bölüşdürülüb

**2021-ci il üçün dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan 2 milyard 835 milyon manat vəsaitin cari ilin 6 ayı ərzində 2 milyard 611,8 milyon manatı layihələr üzrə bölüşdürülüb, 223,2 milyon manatı isə ehtiyatda (bölüşdürülməmiş) saxlanılıb.**

AZƏRTAC Maliyyə Nazirliyinə istinadla xəbər verir ki, bu dövrdə sifarişçi təşkilatlar tərəfindən həmin layihələr üzrə təqdim etdikləri məxaric sifarişləri ilə dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu üçün nəzərdə tutulan vəsaitin cəmi 32 faizi və ya 907,1 milyon manatı istifadə olunub. İstifadə olunmuş vəsait bölüşdürülmüş dövlət əsaslı vəsait qoyuluşu xərclərinin 34,7 faizini təşkil edib.

# Dövlətin dəstəyi, şəhid ailələri və qazilərin razılığı, cəmiyyətin məmnunluğu



**Azərbaycanda şəhid ailələrinə və qazilərə həmişə dərin hörmət və ehtiram olub. Bu münasibət İkinci Qarabağ savaşından sonra isə daha ardıcıl xarakter alıb. Vətənin ərazi bütövlüyü naminə həyatını qurban verən şəhidlərin ailələrinin və sağlamlıqlarından keçən qazilərin problemləri operativ həll olunur, mənzil-məişət şəraitlərinin yaxşılaşması üçün tədbirlər görülür, ehtiyacı olanlara mənəvi-psixoloji kömək göstərilir.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, bu cür sosial dəstək tədbirləri indiyəcən 24 mindən çox şəxsi əhatə edir. Şəhid ailələrinə müvafiq sosial ödənişlərin təyinatı prosesi demək olar ki, başa çatıb. Prezident İlham Əliyevin 25 iyun 2021-ci il tarixli fərmanına əsasən, yaxın vaxtlarda şəhid ailələri və qazilərə 7 dövlət orqanı üzrə 26 növ xidmətin göstəriləcəyi vahid əlaqələndirmə mərkəzlərinin təşkili, eləcə də müharibədə yaralanmış hərbi qulluqçuların əlilliyinin qiymətləndirilməsi işləri yekunlaşacaq.

Məlum olduğu kimi, cari il iyulun 14-də dövlət başçısının iştirakı ilə Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillər və avtomobillər təqdim olunmuşdur. Ümumiyyətlə, cari il şəhid ailələri və müharibə əlillərinə 3 minədək mənzil və fərdi evin təqdim edilməsi nəzərdə tutulub. Onlardan 1300-ü artıq verilib və bununla indiyədək şəhid ailələri və müharibə əlillərinə verilən mənzil və fərdi evlərin sayı 10 mini ötüb.

Şəhid ailəsi üzvləri və qazilər sosial dəstək çərçivəsində həmçinin məşğulluq proqramları ilə əhatə olunublar. Onların sayı artıq 6800 nəfərə yaxındır. O cümlədən 5 047 şəxs özünüməşğulluq proqramına cəlb edilib. Qeyd edək ki, "Məşğulluq marafonu" cəmiyyətdə böyük dəstək qazanıb və bu aksiyaya qoşulan işəgötürənlərin, təqdim edilən vakansiyaların, həmçinin vakansiyalar üzrə işlə təmin olunanların sayı artmaqdadır.

Vətən müharibəsində yaralanmış qazilərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi, ümumilikdə sosial dəstək və reabilitasiya xidmətləri ilə əhatə olunması da diqqət mərkəzindədir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızın ailə üzvlərinə və qazilərə 2020-ci ilin noyabr ayından psixoloji dəstək tədbirləri həyata keçirir. Habelə müharibə dövründə zərərçəkmiş mülki əhali ilə də psixososial işlər aparılır. Ümumən 3 minə yaxın ailəyə səfərlər edilərək onların 10 min üzvünə sosial-psixoloji dəstək göstərilib, ehtiyacı olanlarla davamlı psixoloji konsultasiyalar keçirilib.

Yeri gəlmişkən, onu da qeyd edək ki, cari ilin iyun ayından pilot layihəsi kimi Bakının Səbail və Yasamal rayonlarında sağlamlıq imkanları məhdud 6 yaşadək uşaqlar üçün başlanan səyyar sosial reabilitasiya xidmətlərinə 18 uşaq cəlb olunub. Layihə özünü doğrultduğu üçün prosesin paytaxtın digər rayonlarını və bölgələri də əhatə etməsi üçün işlərə başlanılıb.

Bundan əlavə, adıçəkilən agentlik tərəfindən əlilliyi olan gənclər üçün regionlarda peşə-əmək reabilitasiyası mərkəzlərinin qurulması, bu istiqamətdə onların cəmiyyətə inteqrasiyasının dəstəklənməsi üzrə təkliflər hazırlanıb və aidiyyəti üzrə təqdim edilib. Artıq layihənin Şəki və Quba rayonlarında həyata keçirilməsi ilə bağlı işlərə start verilib.

Cari ilin birinci yarısında həmçinin 179 imtiyazlı şəxs sanator-kurort mərkəzlərinə yollayışla təmin olunub, effektiv fizioterapevtik və digər vacib prosedurlara cəlb edilib. Daha 71 nəfər isə Naxçıvan Muxtar Respublikasındakı sanatoriya-kurort və müalicə mərkəzlərinə göndəriləcək.

Bu sahədə bir önəmli fakt da cari il üçün müharibə əlilləri və onlara bərabər tutulan şəxslərə 160-a yaxın avtomobilin verilməsinin palanlaşdırılmasıdır. Artıq 50 avtomobil paylanıb. Ümumiyyətlə, indiyədək bu kateqoriyadan olan şəxslərə 7250 avtomobil təqdim edilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Əsas kapitala yönəldilmiş vəsait haqqında

2021-ci ilin yanvar-iyul aylarında əsas kapitala 7059,3 milyon manat məbləğində, yaxud 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 12,1 faiz az vəsait yönəldilmişdir.

Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 10,4 faiz, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 13,4 faiz azalmışdır. İstifadə olunmuş vəsaitin 4883,0 milyon manatı və ya 69,2 faizi məhsul istehsalı sahələrinə, 1639,0 milyon manatı (23,2 faizi) xidmət sahələrinə, 537,3 milyon manatı (7,6 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 4463,7 milyon manatını və ya 63,2 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 4797,1 milyon manatı və ya 68 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 60,3 faiz, büdcə vəsaitləri 19,6 faiz, bank kreditləri 6 faiz, əhalinin şəxsi vəsaitləri 7 faiz, sair vəsaitlər isə 7,1 faiz təşkil etmişdir.

## Sənayenin qeyri-neft sektoru üzrə məhsul istehsalında 16,4 faiz artım qeydə alınıb

Ölkə üzrə cari ilin yanvar-iyul aylarında 27,5 milyard manatlıq və ya 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çox sənaye məhsulları istehsal edilmişdir. Neft-qaz sektorunda məhsul istehsalı 1,6 faiz azalmış, sənayenin qeyri neft-qaz sektorunda isə məhsul istehsalı 16,4 faiz artmışdır.



Dövlət Statistika Komitəsinin məlumatına görə, sənaye məhsullarının 62,7 faizi mədənçıxarma sektorunda, 31,3 faizi emal sektorunda, 5,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 2,3 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 11,1 faiz artmışdır.

Emal sektorunda kompüter, elektron və optik məhsulların istehsalı 2,6 dəfə, əczaçılıq məhsullarının istehsalı 88,3 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 68,7 faiz, tütün məmulatlarının istehsalı 62,5 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 61,2 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 56,4 faiz, tikinti materiallarının istehsalı 46,7 faiz, elektrik avadanlıqlarının istehsalı 46,7 faiz, kağız və karton istehsalı 31,5 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 20,1 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 14,5 faiz, hazır metal məmulatlarının istehsalı 10 faiz, neft məhsullarının istehsalı 8,5 faiz, qida məhsullarının istehsalı 6,8 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 5,6 faiz, maşın və avadanlıqların istehsalı 4,8 faiz, içki istehsalı 1,8 faiz, geyim istehsalı 1,2 faiz artmış, kimya sənayesi məhsullarının istehsalı 3,7 faiz, mebel istehsalı 17,4 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 47,8 faiz, poliqrafiya məhsullarının istehsalı 50,6 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 71,3 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 2,6 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 10,7 faiz artmışdır.

# Ölkənin energetika sektorunda uğurlu islahatlar aparılır



*Əvvəli 1-ci səh.*

Prezidentin açılışında iştirak etdiyi "Suraxanı" yarımstansiyası da istismar müddətini dəfələrlə keçmişdi və onun artan tələbləri tam qarşılaması mümkün deyildi. Ona görə də bu yarımstansiya sökülərək açıq tiplidən qapalı tipli variantda tam yenidən qurulmuşdur.

Müasir avadanlıqlar quraşdırılan "Suraxanı" yarımstansiyası Suraxanı rayonunu, Sabunçu və Xəzər rayonlarının bir hissəsini, o cümlədən bir neçə digər sosial strateji və sosial infrastruktur obyektini elektrik enerjisi ilə təchiz edəcək.

Xüsusi layihə əsasında yarımstansiyanın gücü artırılmış, itkilər və istismar xərcləri azaldılmışdır. Avadanlıqların ətraf mühitə zərərli təsiri azaldılmış və enerji obyektinin daha səmərəli fəaliyyət göstərməsi təmin edilmişdir.

Həyata keçirilən layihələr əhalinin keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təminatı istiqamətində işlərə yenə də xüsusi önəm verildiyini göstərir. Müasir elektrik yarımstansiyalarının inşası, mövcudlarının yenidən qurulması istehlakçıların etibarlı və keyfiyyətli elektrik enerjisi ilə təchiz olunmasına imkan verir. İndi heç kimin işığı 90-cı illərdəki kimi sönmür, ölkənin paytaxtında və ya ən ucqar kəndində yaşamasından asılı olmayaraq, hamı fasiləsiz elektrik enerjisi ilə təmin edilir.

Bir sözlə, ölkənin energetika sisteminin inkişafı birbaşa dövlət başçısının nəzarətindədir və biz energetika sektorunun inkişafı ilə bağlı qərarların nə dərəcədə səmərəli olduğunu gündəlik həyatımızda görürük.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## İqtisadiyyatda orta aylıq əməkhaqqı 725 manatdır

**Dövlət Statistika Komitəsi cari il iyulun 1-i vəziyyətinə ölkə üzrə iqtisadiyyatda işləyənlərin sayı və əməkhaqqı barədə məlumat açıqlamışdır.**



Məlumatda bildirilir ki, 2021-ci il iyulun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 4,5 min nəfər və ya 0,3 faiz azalaraq 1690,6 min nəfər olmuşdur. Onlardan 908,1 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 782,5 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 19,4 faizi təhsil, 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,8 faizi sənaye, 8,2 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,6 faizi tikinti, 6,6 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi peşə, elmi və texniki fəaliyyət, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 13,9 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar. 2021-ci ilin yanvar-iyun aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,6 faiz artaraq 724,4 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## Dövlət büdcəsinin neft gəlirləri azalıb

2021-ci ilin yanvar-iyun aylarında dövlət büdcəsinin neft gəlirləri 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 13,5 faiz və ya 917,9 milyon manat azalaraq 5 milyard 863,4 milyon manat icra edilib.

AZƏRTAC Maliyyə Nazirliyinə istinadla xəbər verir ki, neft gəlirləri proqnoza nisbətən 15,1 faiz və ya 1 milyard 41,8 milyon manat az icra edilib ki, bu da illik proqnozun 42,6 faizini təşkil edir. 2021-ci ilin I yarısında dövlət büdcəsinin neft gəlirlərinin proqnoza və ötən ilin 6 ayına nisbətən az daxilolmasının əsas səbəbi Dövlət Neft Fondundan transfertin proqnoza nisbətən 1 milyard 403,3 milyon manat və ötən ilin I yarısı ilə müqayisədə isə 978,3 milyon manat az olması ilə əlaqədardır.

## Pərakəndə ticarət dövriyyəsi real ifadədə 2,6 faiz artmışdır

Cari ilin yanvar-iyul aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 22 milyard 931,1 milyon, o cümlədən 12 milyard 379,4 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 10 milyard 551,7 milyon manatlıq qeyri-ərzaq malları satılmışdır.

Dövlət Statistika Komitəsi bildirir ki, 2020-ci ilin yanvar-iyul ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 2,6, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 2,4, qeyri-ərzaq malları üzrə 2,8 faiz artmışdır.

Hesabat dövründə alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 48,7 faizi ərzaq məhsullarının, 5,3 faizi içkilər və tütün məmulatlarının, 13,8 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,1 faizi avtomobil benzini və dizel yanacağının, 5,2 faizi elektrik malları və mebellərin, 2,2 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 0,8 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 17,9 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

2021-ci ilin yanvar-iyul aylarında istehlak mallarının dəyər ifadəsində 27,6 faizi ticarət müəssisələri, 49,5 faizi fərdi sahibkarlar tərəfindən, 22,9 faizi isə bazar və yarmarkalarda satılmışdır. 2020-ci ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 22,7 faiz, fərdi sahibkarlar üzrə 0,5 faiz artmış, bazar və yarmarkalarda isə 11 faiz azalmışdır.



Hesabat dövründə pərakəndə ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla ayda 327,2, o cümlədən 176,6 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 150,6 manatlıq qeyri-ərzaq malları almışdır.

# Mədəniyyət diplomatiyası

## İlham Əliyevin bu sahədə yürütdüyü siyasət xalqımızın bəşəri miqyasda tanınmasında mühüm rol oynayır

*Əvvəli 1-ci səh.*

Mədəniyyətə daim yüksək qayğı göstərən, belə əlamətdar günləri heç zaman diqqətdən kənar qoymayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 26 may 2021-ci il tarixdə Bakı Musiqi Akademiyasının 100 illik yubileyi ilə bağlı sərəncam imzalamışdı. Sərəncama əsasən, bu hadisə ilə əlaqədar respublikamızın bir çox bölgələrində, musiqi-tədris ocaqlarında müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulur. XII Qəbələ Musiqi Festivalı isə bu yubileyə töhfə oldu. Sənətsevərlər beş gün davam edən festivalda musiqi kollektivlərinin və tanınmış ifaçıların maraqlı konsert proqramlarından zövq aldılar.

### "Bakı prosesi" dünyada nüfuzlu platformaya çevrilib

İndiyə qədər Azərbaycanda çox əhəmiyyətli mədəniyyət hadisələri yaşanıb. Ölkəmiz bir çox regional və beynəlxalq əhəmiyyətli mədəni tədbirlərə evsahibliyi edib. Humanitar sahədə bütün dünyada böyük maraqla qarşılanan və təqdir edilən xeyli təşəbbüslər reallaşdırılıb. Təsadüfi deyil ki, Azərbaycanın təşəbbüsü ilə 2008-ci ildən başlanmış "Bakı prosesi" artıq bütün dünyada yüksək nüfuzlu beynəlxalq platformaya çevrilib.

Vətən müharibəsindəki möhtəşəm qələbəmizə qədər bunlar Azərbaycanın dünya mədəniyyətinə fayda vermək arzusu, ölkəmizi, xalqımızı beynəlxalq ictimaiyyətə zəngin mədəniyyətimizlə birgə tanıtmağı, sağlam düşüncəli insanları müxtəlif qlobal məsələlər ətrafında bir araya gətirmək istəyi kimi görünürdü. Qələbəmizdən, işğal altındakı torpaqlarımızın azadlığından sonra isə artıq bu cür tədbirlər əlavə məzmun kəsb etməyə başlayır. Azərbaycanın öz müstəqilliyini daha da möhkəmləndirməsi, sosial-iqtisadi inkişaf, ordu quruculuğu, xarici siyasət sahəsində görülən işlər, cəmiyyət həyatının müxtəlif sahələrində aparılan köklü islahatlar qədər mədəniyyət diplomatiyasını da uğurla həyata keçirir. Azərbaycan Prezidentinin bu sahədə də reallaşdırdığı siyasət zərgər dəqiqliyi ilə ölçübbiçdiyini, həyata keçirilən bütün tədbirlərin nəticələrinin düzgün proqnozlaşdırıldığını əks etdirir.

Vətənin igid oğullarının qayalardan dırmaşaraq, yüngül silahlarla düşmənin tankının, topunun üzərinə atılıb azad etdikləri Şuşaya dövlətimiz mədəniyyət işığında daxil oldu. Düşmənin 30 ilə yaxın müddətdə bir daşı-daş üstündə qoymadığı, inkişafdan saxlayıb zülmətə qərq etdiyi, dini məbədlərinə qədər dağıdıb tökdüyü, satıb-sovduğu Şuşada yenidən mədəniyyət günəşi doğdu. Düşməndən təmizlənmiş başqa şəhər və kəndlərimiz kimi Şuşanı da quruculuq ab-havası öz ağuşuna aldı. Azərbaycan Şuşadan dünyaya mədəniyyət ismarıcı göndərdi. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan olundu. Bütün xalqları, ölkələri, insanları kini-küdurəti, mənasız iddiaları, saxta mifləri kənara qoyub mədəniyyət dəyərləri ətrafında birləşməyə çağırdı. Mədəniyyətin gücü, quruculuq eşqi ilə dünyaya, insanlara, bugünə və gələcəyə fayda verməyə səslədi.

### "Xarıbülbül" festivalının dünyaya anlatdığı həqiqətlər

Şuşada təşkil edilmiş "Xarıbülbül" festivalı hər kəsi heyran etdi. Festivalda Şuşadan, Cıdır düzündən yenidən dünyaya xoş musiqi səsi yayıldı. Milli mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycanı özünə vətən bilən hər bir kəsin ürəyi o festivalın keçirildiyi günlərdə Şuşada, Cıdır düzündə döyündü. Azərbaycanda yaşayan və ümumi bir zəngin milli mədəniyyət içində özünəməxsusluqlarını da qoruyan, bu özünəməxsusluqlarla ortaq mədəniyyətimizi daha da zənginləşdirən müxtəlif xalqların nümayəndələrinin ifaları ilə Azərbaycan tolerantlığın, fərqli mədəniyyətlərə hörmət ruhunun mənzərəsini yaratdı. Bunun müasir dünyamızda nə qədər böyük dəyər olduğunu bəşəriyyətə göstərdi. İnsanların sülh və qarşılıqlı hörmət ruhunda yaşamasının, bir-birindən görüb-götürməsinin, birlikdə sevinib, birlikdə kədərlənməyi bacarmasının, Vətənə ümumi faydalar verməsinin necə gözəl könül xoşluğu yaratdığını dünyaya anlatdı. Hər kəs gördü ki, xalqlar bir-biri ilə münaqişə yaratmadan, saxta tarix hekayələrinin əsirinə çevrilmədən, fərqli mədəniyyətlərə hörmətlə yanaşaraq, ümumi bir məkanı özünə Vətən bilib doğma yurdun gələcəyinə görə məsuliyyətini dərk edərək birgə yaşayıb, ümumi inkişaf hədəfləri üçün çalışa bilərlər. Bu, mədəniyyətin qüdrətidir. Mədəni dəyərlərin insanlar arasında yaratdığı qırılmaz bağlardır.

### Tutduğumuz yol ölkəmizə yeni nailiyyətlər qazandırır

Mədəniyyət tarixboyu dövlətlərin iqtisadi, siyasi, hərbi gücü ilə yanaşı addımlayıb. Ordunun hərb meydanında qazandığı zəfəri mədəniyyət öz misilsiz təsiri ilə daha da möhkəmləndirib. Daimi inkişaf üçün yeni imkanlar açıb. Dövlətin ardıcıl uğurları üçün zəmin hazırlayıb. Xalqı, ölkəni mədəniyyət işığında dünyaya tanıdıb və böyük hörmət qazandırıb. Tarixdə ucsuz-bucaqsız ərazilər fəth etmiş elə imperiyalar olub ki, hazırda onların heç izi də qalmayıb. Amma mədəniyyətə dəstək olan, bəşər mədəniyyətinə incilər qazandıran, özünü mədəniyyətdə ifadə edən hər kəs bu gün də həmin mədəni sərvətlərlə birgə yüksəlir, inkişaf edir. Mədəniyyət ona dəstək verən hər bir topluma əbədiyyət qazandırır. Tarix boyunca onun yeni nailiyyətlərinə yol açır.

Mədəniyyətin ən böyük təsir gücü həm də milli birliyə xidmət etməsindədir. Ortaq mədəniyyət insanları öz doğmalığında bir araya gətirir. Xalqın milli birliyini sarsılmaz edir. Mədəniyyət ortaq keçmişə və gələcəklə bağlı məqsədlərə malik ayrı-ayrı ölkələrin birliyi üçün də möhkəm bağlantıdır. Vətən müharibəsindəki qələbəmizdən sonra regionda yeni geosiyasi reallıqlar yaradan, türk dünyasının tərəqqipərvər toplumlarla bir arada inkişafı, sülh, sabitlik, rifah içində bəşəriyyətin xoşbəxt gələcəyinə yönələn, ardıcıl işlər aparan Azərbaycan üçün bu amil də çox vacibdir.

Ölkəmiz son onilliklərdə mədəniyyət sahəsində bir sıra tarixi nailiyyətlərə imza atmaqdadır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə uzun illərdən bəri həyata keçirilən yerli və qlobal layihələr, humanitar təşəbbüslər ölkəmizin mədəniyyət diplomatiyasının uğurlarına xidmət edir. Mehriban xanımın təşəbbüsü ilə indiyə qədər doğma yurdumuzun paytaxtında, bölgələrdə və Azərbaycan hüdudlarından kənarda çox əhəmiyyətli mədəniyyət layihələri həyata keçirilib. Mühüm geostrateji mövqeyə, zəngin təbii sərvətlərə, böyük inkişaf potensialına görə tanınan Azərbaycanı dünyanın böyük bir hissəsi indi həm də zəngin mədəniyyətimizlə kəşf etməyə başlayıb. Bu layihələrin hər biri ölkəmizin imicini daha da yüksəldir. Biz azərbaycanlıları sivil, qədim mədəniyyətə malik xalq kimi dünyaya təqdim edir. Min illərboyu bu torpaqlarda yaradılan və nəsillərdən-nəsillərə mənəvi miras kimi keçən misilsiz mədəniyyət incilərimizi bəşəriyyətə sərgiləyir. Mədəniyyətlər arasında dialoq, tolerantlıq, multikulturalizm çağırışları ilə Azərbaycanın tutduğu yolu, ümumbəşəri dəyərlərə bağlılığını, yüksək amallarını göstərir.

Heydər Əliyev Fondunun silsilə tədbirləri, xarici ölkələrdə keçirilən Azərbaycan mədəniyyəti günləri, Üzeyir bəy Hacıbəyli, Rostropoviç, Qəbələ Beynəlxalq Musiqi festivalları, "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı, Bakı Caz Festivalı, görkəmli mədəniyyət xadimlərinin yubileyləri ölkəmizin getdikcə artan nüfuzu və potensialının mədəniyyət sahəsindəki təzahürüdür. Bütün bunlar hazırda Azərbaycanı dünyanın əsas musiqi mərkəzlərindən birinə çevirmişdir.

Son illər Naxçıvan, Qəbələ, Şəki, İsmayıllı, Lənkəran və digər şəhər-rayonlarında keçirilən tədbirlər həm bölgələrin mədəni irsinin, həm də turizm potensialının yerli və beynəlxalq ictimaiyyətə tanıdılması baxımından əhəmiyyətlidir.

### İnsanları doğmalaşdıran mədəniyyət platforması

Qəbələ Musiqi Festivalı da mədəniyyət sahəsində artıq kifayət qədər mötəbərlik qazanmış maraqlı platformadır. Azərbaycanın dilbər guşələrindən olan Qəbələ şəhəri hər il öz qapılarını dünyanın müxtəlif məkanlarından olan sənətsevərlərin, musiqi festivalı iştirakçılarının üzünə açır.

Musiqi ictimaiyyətinin böyük rəğbətlə izlədiyi Qəbələ Musiqi Festivalının proqramı hər zaman olduğu kimi bu il də zəngin idi. Festival boyu ayrı-ayrı musiqi kollektivlərinin yaddaqalan konsert proqramları oldu. Festivalın maraqlı cəhətlərindən biri də o idi ki, burada klassik musiqi ilə yanaşı, muğam, vokal, kamera musiqisi axşamları da təşkil edilmişdi. Ölkəmizin aparıcı musiqi təhsili ocaqlarının müəllim və tələbələrinin, eləcə də müxtəlif ifaçı kollektivlərinin geniş səpkidə iştirakı da builki Qəbələ Musiqi Festivalının başlıca məziyyətlərindən sayıla bilərdi. Bu da dinləyicilərə yeni səslər eşitmək, fərqli ifa üslublarından zövq almaq imkanı yaratdı.

İyulun 31-də XII Qəbələ Musiqi Festivalının təntənəli açılış mərasimi oldu. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın festival iştirakçılarına təbrik məktubu tədbirin təşkilinə olan yüksək diqqətdən xəbər verirdi. Açılış mərasimindən sonra Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestrinin ifasında geniş konsert proqramının təqdim olunması festivalı daha da rövnəqləndirdi.

Avqustun 1-də Konqres Mərkəzində BMA-nın müəllim və tələbələrinin iştirakı ilə kamera-instrumental musiqi gecəsi keçirildi. Respublika və beynəlxalq müsabiqələr laureatları olan tələbələrdən bir qrupunun ifaları dinləyicilərə böyük zövq yaşatdı. Həmin gün baş tutan kamera musiqi axşamında respublikanın tanınmış sənət adamları da öz ifaları ilə festivala gözəllik gətirdilər. Gənc bəstəkar, Vətən müharibəsi qazisi Vüqar Məmmədzadənin "Şəhidlərə ithaf" adlı əsəri isə konsertin məxsusi zəfər ovqatının ifadəsi idi. Festivalın növbəti günlərində də dinləyicilərə bir-birindən maraqlı konsert proqramları, yeni ifalar, musiqi inciləri təqdim edildi və XII Qəbələ Musiqi Festivalı gözəl bir mədəniyyət bayramı kimi başa çatdı.

Bu cür mədəniyyət tədbirləri insanları bir-birinə doğmalaşdırır. Dünyamızı saflaşdırır, insanları pis niyyətlərdən, mənfi emosiyalardan təmizləyir. Bu, Azərbaycanın nəcib missiyasıdır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# O, 44 günlük şanlı müharibənin ilk şəhidlərindən idi

Şəhid Rüstəm İbrahim oğlu Məmmədov yaşasaydı, 23 yaşı olacaqdı. Onun doğum gününü məzarı başında doğmaları, hərbçi yoldaşları, ictimaiyyət nümayəndələri və şəhid anaları, müəllimi, şagirdlər qeyd etdilər.



Ruhuna dualar oxundu, Allahdan bütün şəhidlərə rəhmət diləndi, hərbçi yoldaşları onun igidliyindən söz açdılar. Çıxış edənlər şəhidin ailəsinə başsağlığı verdilər, "Vətən sağ olsun!" dedilər.

Rüstəm orta məktəbi qurtardıqdan sonra Sumqayıtda hərbi xidmət keçib, əsgərlikdən sonra isə müxtəlif yerlərdə çalışıb. İkinci Vətən müharibəsi başlamazdan 20 gün öncə həyatını yenidən ordu ilə, hərblə bağlayaraq qulluğa başlayıb. Sentyabrın 27-dən döyüşlərə atılıb... və qanlı döyüşlərin 3-cü günündə - sentyabrın 29-da Suqovuşan-Ağdərə istiqamətində döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Amma uzun müddət onun nəşini götürmək mümkün olmayıb. Hamı kimi onun da arzuları vardı, baxmayaraq ki, Rüstəm əsgəri xidmətdə olarkən atası dünyasını dəyişmiş, ailənin bütün qayğıları Rüstəmin üzərinə düşmüşdü. Bacısı Könül xanıma çox bağlı idi. Həmişə deyərdi ki, sənin övladına yaxşı dayı olacağam. Odur ki, bacısı ailə həyatı quranda çox sevindi, çünki arzusu yerinə yetəcəkdi. Amma haradan biləydi ki, elə dayı olacağı gün də şəhid olacaq.

Şəhidin anası Aynur xanım həyatında iki böyük zərbə alıb. Həm həyat yoldaşını, həm də oğul itgisi ona çox təsir edib. Lakin "Çətin də olsa dözürəm, təskinliyimiz torpaqlarımızın düşmən işğalından azad olunmasıdır", - deyir.

Qeyd edək ki, Rüstəm Məmmədov ölümündən sonra "Vətən uğrunda" ,"Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

***Esmira HİDAYƏTOVA,***
***Mingəçevir***

# Biz birlikdə güclüyük!

## *Hande HARMANCI:*
## "Son bir həftədə Azərbaycanda COVID-19-a yoluxma halları 72 faiz artıb"

*"Əgər çox sayda vətəndaş koronavirusa yoluxub xəstələnərsə, xəstəxanaya yatma halları artarsa, səhiyyə müəssisələri dolarsa, hökumətlərin sərt karantin tədbirlərini tətbiq etməkdən başqa çarəsi qalmır. Yoluxma sürətini azaltmağın ən təsirli yolu insanların bir araya gəlməsini mümkün qədər azaltmaqdır. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) olaraq profilaktik tədbirlərlə - ara məsafəsinin qorunması, əl gigiyenasına əməl edilməsi, respirator gigiyenaya riayət olunması və vaksinasiyadan keçmənin birgə tətbiqinin tərəfdarıyıq".*

AZƏRTAC xəbər verir ki, bunu ÜST-nin Azərbaycan nümayəndəliyinin rəhbəri Hande Harmancı deyib.

H.Harmancı bildirib ki, son bir həftədə Türkiyədə yeni yoluxma halları 53, Gürcüstanda 27, İsraildə 40, Azərbaycanda isə 72 faiz artıb. Həmin ölkələrdə ölüm sayında da 50 faiz artım qeydə alınıb: "Bu, sadalanan ölkələrdə, o cümlədən Avropanın digər ölkələrində də pandemiyanın şiddətləndiyini göstərir. Müşahidə etdik ki, sərhədləri bağlayaraq xəstəliyin ölkəyə girməsini əngəlləmək mümkün deyil. Lakin bir sıra ölkələr mümkün olduğu qədər koronavirusun xaricdən idxal olunmasının qarşısını almağa çalışırlar. Azərbaycan da həmin ölkələrdəndir. Hazırda ölkəyə giriş üçün vaksin pasportu və PZR testinin neqativ nəticəsi tələb olunur. Sərhədlərin nəzarət altında saxlanılması hökumətlərin verəcəyi strateji qərardır. Bizim üçün önəmli olan isə insanların profilaktik qaydalara əməl etməsi və yoluxanların təmaslarını erkən aşkarlamaqdır".

# Vaksinasiya ümumxalq hərəkatına çevrilməzsə...

*Əvvəli 1-ci səh.*

Məhz bunun nəticəsində virusa yoluxanların, hətta ölənlərin sayının müəyyən vaxtlarda (əsasən də Nazirlər Kabineti yanında yaradılan Operativ Qərargahın, Səhiyyə Nazirliyi və TƏBİB-in qəbul etdiyi qərarlarda və bəzi qadağalarda yumşaldılmaya gedildikdən sonra) artması müşahidə edildi.

COVID-19 peyvəndləri mümkün olan ən yüksək təhlükəsizlik standartını qoruyaraq sürətlə hazırlandı. Peyvəndə ehtiyac təcili idi, bu səbəbdən dövlətlər və şirkətlər onu hazırlamaq üçün daha çox səy göstərdilər. Ciddi təhlükəsizlik və klinik standartlara riayət etməklə yanaşı, vaksinin tədqiqi və hazırlanması bütün dünyada eyni vaxtda baş verdi.

Bəzən insanlarımızı çaşdırmaq üçün sosial şəbəkələrdə yayılan dezinformasiyaları tirajlamaqdan belə çəkinməyən maraqlı qüvvələr də meydana çıxdı. Onların yaydığı əsassız xəbərlərə görə, peyvəndlər insanları COVID-19-a yoluxdurur və beləliklə də, ona qarşı müqaviməti artırır. Mütəxəssislər isə bunun absurd olduğunu dəfələrlə bildiriblər: hər hansı peyvəndlərdən COVID-19-a yoluxma mümkünsüzdür. İçtimaiyyət üçün əlçatan olan peyvəndlərin heç birinin tərkibində COVID-19-a səbəb olan canlı virus yoxdur. Vaksinasiya qol ağrısı və ya mülayim hərarət kimi yan təsirlərə səbəb ola bilər. Bu, normaldır və peyvəndin işə yaradığına bir işarədir.

Birdəfəlik bilmək lazımdır: peyvəndlər bədənin müəyyən xəstəliklərdən qorunmasına kömək edir. Əlbəttə, bədən ona uyğunlaşanadək, hər hansı bir dərman, qol ağrısı və ya yüngül temperatur artımı kimi kiçik, qısamüddətli yan təsirlərə səbəb ola bilər. Amma bunlar keçicidir.

Vaksinləri sınaqlardan çıxarmağa müxtəlif könüllülər qoşulur. Bu könüllülər coğrafi ərazi, irqi və etnik mənşə, cinsiyyət və yaş baxımından müxtəlifdirlər. Onlar, həmçinin, bu xəstəliyə yoluxmaq riskini daha yüksək edən əlaqəli xəstəlikləri olan insanlardır. Bütün bunlar da əsas yaradır ki, vaksinin hər kəs üçün təklukəsiz olduğu və effektivliyi dönədönə sınaqdan çıxarılıb.

COVID-19-la mübarizə üçün vaksin sınaqları təhlükəsizlik və etik standartlara uyğundur.

Onun effektivliyini sınaqdan keçirmək və hər hansı ümumi yan təsirləri, eləcə də təhlükəsizliklə bağlı problemləri müəyyən etmək üçün minlərlə könüllünün iştirakı ilə çoxsaylı sınaq mərhələləri keçirilir.

Virusoloqlar hesab edir ki, vaksin hazırlanması hansısa məhdud şəraitdə edilə bilməyən mürəkkəb texniki prosesdir. Bura minlərlə könüllünün iştirak etdiyi klinik sınaqlardan öncə laboratoriya şəraitində geniş test sınaqları daxildir. Vaksinlər bir ölkədəki mütəxəssis həkimlər və alimlər tərəfindən təsdiq olunmalıdır.

Daha bir mühüm məsələ də tibbi maskalardan istifadə ilə bağlıdır. Bəzən bu maskaların əhəmiyyətini şübhə altına salan məqamlara da rast gəlinir. Amma bu, belə deyil. Maskalardan düzgün istifadə insanları xəstəlikdən qoruyur. COVID-19 virusunu daşıyıb-daşımadığını təsdiqləməyin ən yaxşı yolu laboratoriya müayinəsinin aparılmasıdır.

Bir sözlə, vaksinasiya COVID-19-dan xilasolmanın yeganə yolu kimi öz əhəmiyyətini saxlamaqdadır. Peyvəndlərin birinin digərindən keyfiyyətli olub-olmaması absurd görünür. İnfeksionistlər və eləcə də virusoloqlar hesab edirlər ki, vaksinasiya ümumxalq hərəkatına çevrilməlidir. Dünyanın COVID-19-dan xilas olması üçün insanların peyvəndlənməsi isə birinci və vacib şərtdir. Digər yolu isə qızıl qaydalara riayət etməkdir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Sumqayıtda ictimai nəqliyyatda və qapalı məkanlarda növbəti dəfə reydlər keçirilib

Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşları ictimai nəqliyyatda tibbi maskalardan istifadə etməyən şəxslərin aşkarlanması istiqamətində növbəti nəzarət-profilaktik tədbirlər həyata keçiriblər.

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbir zamanı ictimai nəqliyyatdan istifadə edən sərnişinlərlə izahedici söhbətlər aparılıb. Polis əməkdaşları onları ictimai nəqliyyatda olan zaman tənəffüs yollarını qoruyan fərdi vasitələrdən, yəni, qoruyucu tibbi maskalardan istifadə etməyin zəruriliyi barədə məlumatlandırıblar.

Profilaktik tədbir zamanı ictimai nəqliyyat vasitələrində tibbi maskadan istifadə etməyən sərnişinlər, eləcə də sürücülər polis əməkdaşları tərəfindən müəyyənləşdirilib-lər. Tibbi maskadan istifadə etməyən şəxslər avtobuslardan düşürülüb, onlar barəsində inzibati tənbeh tədbirləri görülüb.

Tədbirlər zamanı taksi avtomobillərində şəffaf arakəsmələr quraşdırmayan sürücülər, eləcə də avtomobilin ön oturacağında əyləşən və tibbi maskadan istifadə etməyən sərnişinlər barəsində də qanunauyğun tədbirlər görülüb.

Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşları tərəfindən, həmçinin fəaliyyətinə icazə verilən iri ticarət mərkəzlərində də nəzarət-profilaktik tədbirlər keçirilib. Qapalı məkanlarda tibbi maskadan istifadə etməyən şəxslər müəyyənləşdirilib, onlarla izahedici söhbətlər aparılıb. Xəbərdarlıqlara məhəl qoymayan şəxslər barəsində isə intizam tədbirlər tətbiq olunub.

Həmçinin profilaktik tədbirlər çərçivəsində Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşları tərəfindən Dövlət Vergi Xidməti və Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssislərinin iştirakı ilə şəhər ərazisində yerləşən şadlıq saraylarında da yoxlamalar aparılıb. Yoxlamalar nəticəsində müəyyən edilib ki, bəzi hallarda müvafiq qərardan irəli gələn tələblər pozularaq toylarda icazə verilən saydan artıq qonaqlar iştirak edir. Eləcə də mərasimlərə qatılan şəxslərin əksəriyyətinin vaksinasiya olunmalarını təsdiqləyən COVID-19 pasportu hələ də yoxdur.

Sumqayıt şəhəri ərazisində karantin qaydalarına əməl olunmasına nəzarəti gücləndirmək məqsədilə ictimai nəqliyyatda, şadlıq evləri və digər qapalı məkanlarda polis əməkdaşları tərəfindən profilaktik tədbirlər mütəmadi həyata keçiriləcək.







# Şəmkirdə karantin rejimini pozan SPA mərkəzi aşkarlanıb

Şəmkirdə karantin rejimini pozan SPA mərkəzi aşkarlanıb. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Gəncə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, Şəmkir Rayon Polis Şöbəsinə (RPŞ) rayon ərazisindəki "Bəy hamamı" adlı SPA mərkəzinin sanitar-karantin qaydalırna zidd olaraq, gizli şəkildə fəaliyyət göstərməsi barədə məlumat daxil olub. Polis əməkdaşları dərhal adıçəkilən ünvana gedərək obyekt işçiləri və müştərilər polis şöbəsinə gətiriliblər.

Şöbədə onlarla profilaktik söhbətlər aparılaraq karantin rejiminin qaydaları izah olunub. Obyekt sahibi Adil Mustafayev barəsində İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) ilə protokol tərtib edilərək 4000 manat miqdarında cərimə edilib. SPA mərkəzində işləyən A.Ağamalıyeva, A.Əliyevanın hər birinin barəsində 200 manat, müştərilər Ceyhun Məmmədli, Elşən Tağıyev, Ələddin Alıyev, Azər Verdiyev və Orxan Abbasovun hər birinin barəsində isə 300 manat protokol tərtib edilərək məsuliyyətə cəlb olunublar.

# *DİN:* Avqustun 10-da 186 toy şənliyinin monitorinqi aparılıb

Daxili İşlər Nazirliyinin (DİN), Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri avqustun 10-da Bakı şəhərində və respublikanın digər ərazilərində 186 toy şənliyinin monitorinqini aparıblar.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqlər 173 şadlıq sarayında, 13 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər zamanı toy şənliklərində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə 20 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimələnib. COVID-19 pasportu olmadığına görə 1509 nəfər toy şənliklərinə buraxılmayıb.

# Günün idman manşeti



# 10-nun ayrılığı 10-dan olmadı

## Messi kafedə imzasını atdığı salfetlə 21 il sonra göz yaşlarını sildi

**“Kafedə Messi, atası və böyük qardaşı ilə oturmuşduq. Həmin vaxt yanımızda kağız yox idi. Ona görə də müqaviləni salfet üzərində bağladıq”. Bu, illər sonra dünya futbolunun birnömrəli ulduz futbolçularından birinə çevriləcək argentinalı Lionel Messi haqqında “Barselona”nın uşaq məktəbinin məşqçisi Karles Reksaçanın xatirəsidir.**

Bəli, kim düşünə bilərdi ki, salfet üzərinə atılan imza uzun illər sonra idman hadisəsi olacaq və bu hadisənin qəhrəmanı komandadan ayrılacağı gün elə həmin salfetlə də 21 il sonra göz yaşlarını siləcək.

Amma deyəsən, Paris də “göz yaşlarına inanmır”. Bu günlər uzun illərdir şərəfini qoruduğu İspaniyanın “Barselona” klubundan ayrılan Messi Fransanın PSJ klubu ilə ikiillik müqavilə imzalayıb. O Messi ki, 5 yaşında olarkən atasının məşqçilik etdiyi yerli Qrandoli futbol məktəbində məşqlərə başlamışdı. 1995-ci ildə doğma şəhəri Rosarioda məskunlaşan “Nyuels Old Boyz” klubuna keçmiş və komandanın gənc ulduzuna çevrilmişdi. Və növbəti dörd ildə yalnız bir oyunda meydana çıxmamışdı. Sonra da təvəllüdünə uyğun olaraq “87-ci ilin maşını” ləqəbi ilə məşhurlaşmışdı.

Messinin uşaq vaxtı ciddi xəstəliyi olub. 9 yaşına qədər onun boyu 124 sm idi. “Barselona”ya gələndə onun boyunda bir az artım olsa da,136 sm-lik Messi yaşıdları ilə müqayisədə çox qısa görünürdü. 11 yaşında Messiyə inkişaf hormonu çatışmazlığı diaqnozu qoyuldu. O vaxt argentinalının xəstəliyinin müalicəsi üçün 700-1000 avroya ehtiyac vardı. Çoxuşaqlı ailə üçün bu məbləğ olduqca böyük idi. Argentinanın “River Pleyt” klubu isə futbolçunu müalicə etməkdən imtina etmişdi.

“Barselona”nın idman direktoru K.Reksaç Messinin Kataloniyanın qərbində Leyda əyalətində yaşayan qohumları sayəsində onun istedadından xəbərdar idi və bir müddət sonra atası ilə Messini sınamaq üçün baxışa çağırdı. Salfet üzərində imzalanan müqaviləyə görə, Messi İspaniyaya köçəcəyi halda müalicə xərcini “Barselona” öz üzərinə götürəcəkdi. Beləliklə, argentinalı dünya futboluna yeni hekayə yazmaq üçün yola çıxdı. Kataloniya klubunda Messi ilə ayrıca fiziki hazırlıq məşqçisi Xuanxo Brau məşğul olmağa başladı. Göründüyü kimi, “Barsa”nın 10 nömrəsi heç zaman taleyinin qismətinə təslim olmamış və yaranan çətinlikləri məharətlə dəf etmişdi.





Argentinalı bütün qollarını bir vaxtlar onu futbol bölməsinə aparan mərhum nənəsinə həsr edir. Messinin sol çiynində anasının portreti, sol ayağında oğlu Tiaqonun əl izləri var. İstedadı və oyun tərzi ilə tez-tez bənzədildiyi Dieqo Maradona da Messini öz xələfi kimi göstərmişdi.

Uzun illər formasını geydiyi “Barselona”dan ayrılan Lionel bu gün həm yerli, həm də xarici mətbuatın diqqət mərkəzindədir. Bu ayrılığın tərəflərə müsbət və mənfi təsirləri haqda fərqli fikirlər var. Bəziləri Messisiz “Barselona”nın iddiasız, argentinalının isə yeni klubda uğursuz olacağını düşünürlər.





2006-2015-ci illərdə Avropa və dünyanın ən yaxşı klubu olan “Barselona” 4 dəfə Çempionlar Liqası kubokunu qazanıb. Amma 2015-ci ildən sonra Çempionlar Liqasında çempionluğa həsrətdir. Klub bu müddətdə cəmi bir dəfə yarımfinala çıxa bilib. Üstəlik, iki mövsümdür “La Liqa”da çempion titulu da “Barsa” üçün əlçatmazdır. Lionel Messi də son iki mövsümdə klub yarışlarında ümumi məhsuldarlıq baxımından 40 qol səddini keçə bilməyib, Çempionlar Liqasında uyğun olaraq, 3 və 5 qol vurub. Bu isə argentinalı futbolçuya yaraşmayan rəqəmlərdir. Nəticədə onun transfer dəyəri də 80 milyon avroya düşüb ki, bu da hazırda dünyada 16-21-ci göstəricidir.

Digər tərəfdən baxdıqda hər iki tərəf üçün yeniliyin olması vacib idi. Düzdür, Messinin gedişi hələ ötən il gündəmə gəlmişdi. Nəticələrə baxsaq, ötən mövsüm “Barselona” argentinalının oynamadığı 7 oyunda 5 qələbə və 2 heç-heçəyə imza atıb. Ona görə də Messinin yoxluğu “Barsa”nın futboldankənar işlərinə təsir edə biləcəksə də, meydandakı nəticələrin uğursuz olacağı düşünülmür.

Əvəzində Messi son illər inkişafda və maliyyə baxımından daha yaxşı vəziyyətdə olan PSJ-yə keçib. O, Fransa çempionatında, yəqin ki, problem yaşamayacaq. Əsas hədəfi isə Kriştiano Ronaldonun “Yuventus”la hələ əldə edə bilmədiyi, Paris klubunun (elə Messinin özünün də) həsrətini çəkdiyi Çempionlar Liqasını qazanmaq olacaq. Müqayisə üçün deyək ki, Ronaldo 5 dəfə Çempionlar Liqasının qalibi olubsa, Messinin 2005-2006-cı il mövsümündə 1/4 final, yarımfinal və finalda oynamadığını nəzərə alsaq, 3 Çempionlar Liqası çempionluğunda əməyi var. Deməli, rəqabət davam edir.

*Dünya futbolunda gündəm olan bu keçidi müxtəlif istiqamətlər üzrə təhlil etmək mümkündür. Ancaq reallıq da qaçılmazdır, baxmayaraq ki, İspaniya futbolunu sevənlər, xüsusilə “Barsa” azarkeşləri bu ayrılığı arzulamazdılar. Çünki onlar üçün Messi “Barselona”dır, Messi “La Liqa”dır.*

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Beynəlxalq aləm

## Myanmada bir ay ərzində xuntanın 740 tərəfdarı məhv edilib



Myanmada xuntaya qarşı mübarizə aparan silahlı qruplaşmalar ötən ay ərzində ölkədə hərbi çevrilişin iştirakçılarını dəstəkləyən azı 740 hərbi qulluqçunu öldürmüşlər.

Bu barədə xuntanı tanımayan parlament deputatlarının formalaşdırdığı Milli Birlik Hökumətinin (NUG) nümayəndələri məlumat vermişlər.

Myanma ordusu Sikay şəhəri yaxınlığında döyüşlərdə ən çox itkiyə məruz qalmışdır. Orada 417 hərbçi öldürülmüşdür.

NUG-də bildirmişlər ki, ümumilikdə bir ay ərzində xunta əleyhdarları ilə ordu arasında 355 toqquşma baş vermiş, nəticədə 200 nəfərə yaxın dinc sakin həlak olmuş, 47 nəfər yaralanmışdır.

Myanma ordusu hələ ki NUG-un məlumatını şərh etməmişdir.

## Yosihide Suqa yaponlar arasında populyarlığını itirir



Yosihide Suqanın başçılıq etdiyi Yaponiya hökumətinin populyarlığı rekord dərəcədə aşağı səviyyəyə düşmüşdür.

NHK telekanalının sifarişi ilə keçirilmiş sorğunun nəticəsinə əsasən, Suqa hökumətinin əhali tərəfindən dəstəklənməsi səviyyəsi 29 faizə düşmüşdür. Hazırkı Nazirlər Kabinetinin əleyhdarlarının faizi isə 6 bənd artaraq 52 faizə çatmışdır.

Bu, 2020-ci ilin sentyabrında Suqanın hakimiyyətə gəldiyi andan bəri ən aşağı göstəricidir. Sorğuda 1200-dən çox respondent iştirak etmişdir.

Sentyabrın 30-da Yosihide Suqanın Yaponiyanın hakim Liberal Demokratlar Partiyasında sədrliyinin müddəti başa çatır. Eyni zamanda Nümayəndələr Palatasının (parlamentin alt palatası) deputatlarının mandatının müddəti oktyabrın 21-də bitir.

Gözlənilir ki, həmin tarixədək palataya seçkilər keçiriləcək.

## Nyu York qubernatoru əxlaqsızlığa görə istefa verdi



Nyu Yorkun qubernatoru Endrü Kuomo bildirmişdir ki, onun ünvanına səsləndirilmiş seksual hərəkətlərlə bağlı ittihamlardan sonra istefaya gedir. Bu barədə TASS Agentliyi xəbər verir.

Məlumata görə, istintaq Kuomonun 11 qadına qarşı əxlaqsız hərəkətlər etdiyi qənaətinə gəldikdən sonra demokratların liderləri, o cümlədən ABŞ Prezidenti Co Bayden qubernatoru vəzifəsini tərk etməyə çağırmışlar. Siyasətçi 14 gündən sonra ofisini tərk edəcək. Onun səlahiyyətlərini bu vəzifədə ilk qadın qubernator olacaq Keti Xoçul yerinə yetirəcək.



## Taliblər Əfqanıstanda daha bir şəhəri ələ keçirdilər

**ABŞ və onun qərbli müttəfiqləri qoşunlarını Əfqanıstandan çıxarmağa başladıqdan sonra ölkədə gərginlik artmışdır. Son günlər isə qarşıdurmalar xeyli kəskinləşmişdir. “Taliban” hərəkatı növbəti yaşayış məntəqəsini - Əfqanıstanın şimal-şərqində yerləşən Bədəxşan əyalətindəki Fəyzabad şəhəri üzərində nəzarəti ələ keçirmişdir. Bu əyalət Tacikistan, Çin və Pakistanla həmsərhəddir.**

Yerli hökumətin nümayəndəsi Hücatulla Xirədməndin dediyinə görə, taliblər yarım ay əvvəl Fəyzabad şəhərinə hücuma keçmiş və üç dəfə geri oturdulmuşlar. Lakin bu dəfə Əfqanıstanın təhlükəsizlik qüvvələri geri çəkilmək məcburiyyətində qalmışdır. Xirədmənd taliblərin şəhərə tam nəzarət etdiyini bildirmişdir.

Bu ərəfədə ölkənin şimalındakı Bağlan və qərbindəki Fərəh əyalətlərinin inzibati mərkəzləri də taliblər tərəfindən ələ keçirilmişdir.

Son məlumata görə, Əfqanıstan Prezidenti Əşrəf Qani ölkənin şimalında yerləşən Bəlx əyalətinin inzibati mərkəzi Məzari-Şərif şəhərinə yollanmışdır. Dövlət başçısını Əfqanıstanın siyasi liderləri marşal Rəşid Dustum, Məhəmməd Mühəkkik və Cuma Xan Həmdərd müşayiət edirlər.

Bəlx əyaləti qubernatorunun administrasiyasında bildirmişlər ki, siyasi liderlər və yerli hakimiyyət orqanlarının nümayəndələri təhlükəsizlik məsələləri üzrə iclas keçirmiş və ölkənin şimalında yaranmış vəziyyəti müzakirə etmişlər. Marşal Rəşid Dustumun nümayəndəsi Həbiburəhman Kuyaşın dediyinə görə, hökumət ölkənin şimal və şimal-şərq əyalətlərində “Taliban”a qarşı irimiqyaslı əməliyyat planlaşdırır.

Taliblərin hücumları ABŞ-ın öz qoşunlarını Əfqanıstandan çıxaracağı qərarından sonra tez-tez baş verir. Onlar ölkənin Mərkəzi Asiya ilə kommunikasiyasını təmin edən şimal əyalətlərinin mərkəzlərini bir-birinin ardınca ələ keçirirlər. Halbuki ABŞ və “Taliban” arasında Qətərin paytaxtı Dohada imzalanmış sazişə əsasən, taliblər 2021-ci il sentyabrın 11-dək, yəni NATO hərbçilərinin Əfqanıstandan çıxarılması başa çatanadək əyalət mərkəzlərinə hücum etməmək barədə öhdəlik götürmüşlər.

Lakin ABŞ tərəfindən aviasiya zərbələri endirildiyi bəhanəsi ilə taliblər yenidən əyalətlərin inzibati mərkəzlərinə hücumlara başlamışlar. Son bir həftə ərzində onlar əyalətlərin 9 inzibati mərkəzi üzərində nəzarəti ələ keçirmişlər.

***Rizvan CƏFƏROV,***
***“Azərbaycan”***

## Əlcəzairdə 42 nəfər meşə yanğınlarının qurbanı olub



Əlcəzairdə meşə yanğınları qurbanlarının sayı 42-yə çatmışdır. Həlak olanlar arasında təbii fəlakətin fəsadlarının aradan qaldırılmasında iştirak etmiş 25 hərbi qulluqçu var. Bu barədə hökumət nümayəndələri məlumat vermişdir.

Əlcəzair Prezidenti Əbdülməcid Təbbunun dediyinə görə, əsgərlər Tizi-Uzu əyalətində və ölkənin şərqində yerləşən Bəcayə dağı yaxınlığında 100 nəfərdən çox sakinin xilas edilməsi üzrə əməliyyat zamanı həlak olmuşlar.

Srağagün hakimiyyət orqanları ölkənin bir neçə regionunda baş vermiş yanğınlar nəticəsində 7 nəfərin həlak olduğu və bir neçə adamın yaralandığı barədə məlumat vermişdir.

Əlcəzairin daxili işlər naziri Kamal Bərjud baş verənləri “cinayətkar sabotaj”ın nəticəsi kimi qiymətləndirmişdir.

Ölkənin Mülki Müdafiə İdarəsindən verilən məlumata görə, meşə yanğınları 18 əyalətdə 36 yaşayış məntəqəsinə yayılmışdır.

## Estoniyada sənaye müəssisələrinin istehsal həcmi artıb

**Sənayenin bütün sektorlarında istehsalat həcmi artıb: mədənçıxarma sənayesində 19 faiz, enerji sektorunda 14 faiz və emaledici sənayedə 10 faiz.**

AZƏRTAC Estoniya mətbuatına istinadla xəbər verir ki, bu barədə məlumatı ölkənin Statistika departamenti yayıb.

Statistika departamentinin analitiki Helle Bunderi bildirib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə sənaye istehsalı aprel ayından başlayaraq artıb.

Bildirilib ki, sənaye müəssisələri carı ilin iyun ayında 2020-ci ilin müvafiq ayına nisbətən 11 faiz çox məhsul istehsal edib.

“İyun ayında mədənçıxarma sənayesində torf hasilatı və daş çıxarma istehsalında müsbət artımı qeyd etmək olar. Ötən ilin iyun ayına qədər koronavirus pandemiyası ilə əlaqədar elan edilmiş fövqəladə vəziyyət rejimi ləğv edildikdən sonra sənayenin canlanması müşahidə olunub”, - deyə analitik Helle Bunder söyləyib.

Bildirib ki, ölkədə bir çox emaledici sənaye sahələrində istehsal artıb. Daha əhəmiyyətli sənaye sahələri arasında ağac emalı (14,8 faiz) və metal məmulatları (13,4 faiz), həmçinin rezin və plastik məmulatlar (38,7 faiz), elektrik avadanlıqları (21,4 faiz), qida məhsulları (2,1 faiz) və tikinti materialları istehsalında (27,1 faiz) artım qeydə alınıb. Bununla yanaşı, elektron avadanlıqların istehsalı azalıb.



# Güclü turbulentliyə düşən “AZAL” pilotlarına təşəkkür elan edilib





**“Azərbaycan Hava Yolları” QSC-nin Mətbuat xidmətinin məlumatına görə, avqustun 11-də “Azərbaycan Hava Yolları” rəhbərliyi 10 min metrdən çox yüksəklikdə güclü turbulentlik zonasına təyyarənin idarə edilməsi zamanı peşəkar məharət göstərən aviaşirkət pilotları ilə görüş keçirib.**

Xatırladaq ki, avqustun 7-də İstanbuldan Bakıya hərəkət edən “Azərbaycan Hava Yolları” aviaşirkətinin Airbus A320 təyyarəsi Türkiyə səmasında güclü turbulentlik zonasına düşüb.

“AZAL”ın prezidenti Cahangir Əsgərov güclü turbulentlik zamanı bacarıqlı hərəkətlərinə görə pilotlar Emin Babayevə, Elşən Sadıqbəyliyə və Məhəmməd Əliəsgərova təşəkkürünü bildirib və onlara qiymətli hədiyyələr təqdim edib.

“Pilotlar təyyarəni güclü turbulentlik zonasından çıxararaq vəziyyəti nəzarətə götürmüş və ştat rejimində uçuşu davam etdirmişlər”, - deyə Cahangir Əsgərov qeyd edib. Onun sözlərinə görə, Azərbaycanın milli aviadaşıyıcısı uçuşların təhlükəsizliyinə və uçuş heyətinin peşəkar hazırlığına hər zaman böyük diqqət yetirir. Aviaşirkətin pilotları təyyarənin müxtəlif şəraitdə idarə olunması zamanı ekipajın hərəkətlərini keyfiyyətli məşq etməyə imkan verən aviatrenajorlarda daim hazırlıq keçirlər.

Cahangir Əsgərovun qeyd etdiyi kimi, turbulentlik, demək olar ki, hər bir mülki aviasiya pilotunun üzləşdiyi, tez-tez rast gəlinən təbiət hadisəsidir. Aydın səmada turbulentlik (AST) əvvəlcədən müəyyən etmək mümkün deyil, lakin təyyarələr üçün heç bir təhlükəsi yoxdur.

Uçuş heyəti də onlara göstərilən diqqətə görə “AZAL”ın rəhbərliyinə təşəkkür edərək gələcəkdə də peşə bacarıqlarının təkmilləşdirilməsinə və uçuşların təhlükəsizliyinin təmin olunmasına davam edəcəklərini bildirib.

# “Kabinetim” ilə yeniliklərdən ilk sən xəbərdar ol

**“Azercell”in unikal mobil tətbiqinin yenilənmiş versiyası artıq bütün platformalarda mövcuddur.**

Abunəçilərə öz nömrəsinə tam nəzarət etmək, balansı artırmaq, tarif və internet paketlərini sifariş edib dəyişdirmək, tətbiqlərə qoşulmaq imkanı verən “Azercell”in “Kabinetim” mobil əlavəsinin daha da təkmilləşdirilmiş versiyası istifadə üçün hazırdır.

“Kabinetim”in yeni versiyasında təqdim edilən ən son təklifləri nəzərdən keçirmək üçün istifadəçilərin heç bir bölməyə keçid etməsinə ehtiyac yoxdur. Belə məlumatların “Kabinetim” hesabının ana səhifəsində əks olunması abunəçilərə xüsusi endirim və təkliflərdən dərhal yararlanmaq imkanını yaradır.




Tətbiqin yeni versiyasında, həmçinin, “push” bildirişlərlə bağlı istifadəçi təcrübəsi təkmilləşdirilib. Bununla da abunəçilər hətta tətbiq açıq olmasa belə, təqdim olunan yeniliklər, kampaniyalar və digər məlumatlara ani giriş imkanı qazanmış olurlar.

Abunəçilərin işini hədsiz dərəcədə asanlaşdıran “Kabinetim” həm iOS, həm də Android əməliyyat sistemlərində çalışır. Tətbiqi abunə haqqı olmadan App Store, PlayStore və Huawei AppGallery-dən pulsuz yükləmək mümkündür. “Kabinetim” avtomatik yenilənmədiyi təqdirdə, yükləmə üçün bit.ly/Kabinetim keçidindən istifadə etmək olar. Həmçinin *110# kodunu yığmaqla da tətbiqi yükləmək üçün birbaşa keçid linki əldə etmək mümkündür.

“Kabinetim”lə “Azercell”in IVI, Bookmate, NNTV, SberZvuk və BluTV tətbiqlərinə abunə olmaq, həmçinin onları dostlarınla paylaşıb bonus balans qazanmaq mümkündür. Qeyd edək ki, “Kabinetim” tətbiqini yalnız smartfon deyil, həm də rahatlıqla veb platformada işlətmək mümkündür. Proqramdan istifadə zamanı meqabaytlar xərclənmir. Tətbiqin funksiyalarından faydalanmaq üçün, sadəcə, “Azercell” nömrəsi qeydiyyatdan keçirilməlidir.

“Azercell” şirkəti abunəçilərinə ən yaxşı rəqəmsal təcrübəni bəxş etmək məqsədilə “Kabinetim” tətbiqini daim inkişaf etdirəcək.

# Özlərini jurnalist kimi qələmə verərək vəzifəli şəxsdən hədə-qorxu ilə pul tələb edən şəxslər yaxalanıblar

Müxtəlif qanunsuz üsullarla, o cümlədən sosial şəbəkə və informasiya resurslarından öz maraqları naminə istifadə etməklə vətəndaşların hüquqlarını pozan, onların haqlı narazılıqlarına səbəb olan və bu yolla qanunsuz gəlir əldə edən şəxslərin ifşa edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində prokurorluq orqanları tərəfindən həyata keçirilən tədbirlər davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, belə tədbirlərdən biri kimi - Sənan Həsən oğlu Abdullayevin və İlqar Əliabbas oğlu Atayevin qanunsuz hərəkətlərinin ifşa olunması istiqamətində aparılmış təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində avqustun 10-da Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanaraq istintaq aparılır.

Aparılan əməliyyat-istintaq tədbirləri ilə Sənan Abdullayevin 2012-ci il dekabrın 24-də yutub videopaylaşım platformasında yaratdığı “Xəbər kanalı” səhifəsində birgə çəkiliş apardığı İlqar Atayev ilə cinayət əlaqəsinə girərək qabaqcadan əlbir olan bir qrup şəxs qismində 2021-ci ilin əvvəllərindən həmin səhifədə Goranboy Rayon İcra Hakimiyyətinin vəzifəli şəxslərinin guya qanunsuz əməllərə yol vermələrinə dair məlumatları videoçarxlar formasında yaymasına, həmin videoçarxların qeyd edilən səhifədən silinməsi məqsədilə rayon icra hakimiyyətinin vəzifəli şəxsindən hədə-qorxu ilə 4 min manat məbləğində pul tələb edərək almasına əsaslı şübhələr müəyyən olunub.

Sənan Abdullayev və İlqar Atayev avqustun 10-da cinayət əməlini törədərkən keçirilmiş əməliyyat tədbiri nəticəsində saxlanılıb, Cinayət Məcəlləsinin 182.2.1-ci maddəsi ilə (hədə-qorxu ilə tələb etmə - qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) şübhəli şəxs qismində tutulublar.

Hazırda cinayət işi üzrə istintaq davam etdirilir.

## B İ L D İ R İ Ş

“İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxsi tərəfindən “İmtiyazlı qrupa daxil olan xəstələrin təminatı üçün dərman vasitələri”nin satın alınması üzrə keçirilmiş açıq tender prosedurunun qalibləri 3 iddiaçı “Referans Pharmaceuticals” Məhdud Məsuliyyətli Cəmiyyəti, “Avromed Company” Qapalı Səhmdar Cəmiyyəti və “Zeytun Pharmaceuticals” Məhdud Məsuliyyətli Cəmiyyəti müəyyən edilmişdir. 02.08.2021-ci il tarixdə agentlik ilə “Referans Pharmaceuticals” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 1 051 911.00 (bir milyon əlli bir min doqquz yüz on bir manat 00 qəpik) manat, “Avromed Company” Qapalı Səhmdar Cəmiyyəti arasında 1 283 625.83 (bir milyon iki yüz səksən üç min altı yüz iyirmi beş manat 83 qəpik) manat və “Zeytun Pharmaceuticals” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında isə 1 579 588.12 (bir milyon beş yüz yetmiş doqquz min beş yüz səksən səkkiz manat 12 qəpik) manat məbləğində satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

“İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxsi tərəfindən “Ümumprofilli müalicə müəssisələrinin fəaliyyətində istifadə olunan əsas dərman vasitələri”nin satın alınması üzrə keçirilmiş açıq tender prosedurunun qalibləri 3 iddiaçı “Referans Pharmaceuticals” Məhdud Məsuliyyətli Cəmiyyəti, “Avromed Company” Qapalı Səhmdar Cəmiyyəti və “Zeytun Pharmaceuticals” Məhdud Məsuliyyətli Cəmiyyəti müəyyən edilmişdir.

02.08.2021-ci il tarixdə agentlik ilə “Referans Pharmaceuticals” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında ***1,417,475.00 (bir milyon dörd yüz on yeddi min dörd yüz yetmiş beş manat 00 qəpik) manat,*** “Avromed Company” Qapalı Səhmdar Cəmiyyəti arasında ***1,356,891.44 (bir milyon üç yüz əlli altı min səkkiz yüz doxsan bir manat 44 qəpik) manat*** və “Zeytun Pharmaceuticals” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında isə ***5,247,973.30 (beş milyon iki yüz qırx yeddi min doqquz yüz yetmiş üç manat 30 qəpik) manat*** məbləğində satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika üzrə bir sıra təhsil müəssisələrinin əsaslı təmiri işlərinin satın alınması üçün *açıq tender elan edir*

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlanada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, yüksək keyfiyyət, müqavilələrin vaxtında yerinə yetirilməsi.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti: 3 ay ərzində.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Sirac Əliyev.

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.

Tel: (+99412) 465 73 48 (110).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 500,00 (beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001781**
**M/h: AZ03NABZ01340100000000002844**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38029018441756516201**
**VÖEN: 1400015711**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçı açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *iddiaçının tenderdə iştirak etmək üçün yazılı müraciəti;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının analoji işlərdə təcrübəsi, potensial texniki və kadr imkanları barədə təsdiqedici sənədlər;*
- *iddiaçının satınalma prosedurunun başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, müvafiq peşə fəaliyyətləri ilə məşğul olmaqdan məhkəmə qaydasında da qadağan edilməməsi barədə sənəd;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;*
- *iddiaçının öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd;*
- *iddiaçı işlərinin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olmalıdır;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı gündən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *iddiaçının tender təklifinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **10 sentyabr 2021-ci il saat 11:00-dək**, tender təklifi və tender təklifinin bank təminatını **20 sentyabr 2021-ci il saat 17:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **21 sentyabr 2021-ci il saat 11:00-da** Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi sərgilər çərçivəsində təbliğat mallarının idxal və ixrac üçün qablaşdırılması, gömrük, hava nəqliyyatı ilə daşınması və logistika xidmətlərinin göstərilməsi “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun satın alınması üçün *təkliflər sorğusu elan edir*

Təkliflər sorğusunda daşınan və quraşdırılan avadanlıqların hazırlanması sahəsində təcrübəsi olan və ixtisaslı işçi heyətinə malik rezident və qeyri-rezident hüquqi şəxs, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsium da daxil olmaqla) iştirak edə bilər.

Təkliflər sorğusunda iştirak etmək istəyən iddiaçılar müəyyən məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu əldə edə və müsabiqə üçün təkliflərini təqdim edə bilərlər:

**AZN hesabı**
**Emitent**
**Bankın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Bankın kodu: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Alan: Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi**
**VÖEN: 1404365471**
**H/h: AZ53CTRE00000000000008498501**
**Büdcə səviyyəsinin kodu -7**
**Büdcə təsnifatının kodu -142330**

Təkliflər sorğusunda iştirak haqqı 100 manatdır. İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar təkliflər sorğusunda iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət;*
- *təklif (qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 bank günü təşkil etməlidir);*
- *təklif dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (qiymət təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;*
- *iddiaçının son 1 (bir) ildəki fəaliyyəti haqqında dövlət orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatı;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin və onlara edilmiş əlavə və düzəlişlərin müvafiq qaydada təsdiqlənmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri;*
- *məhkumluq barədə arayış;*
- *yükdaşımalarla bağlı lisenziya (olduğu təqdirdə);*
- *təkliflər sorğusuna dair təklifi və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat;*
- *digər sənədlər (təkliflər sorğusunun Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər).*

İş həcmləri aşağıdakı kimidir:

- *Rusiya Federasiyasında “OTDYKH Leisure Moscow” (07-09/09/2021) sərgisi üçün yükdaşıma xidmətləri;*
- *“İMTM Tel-Aviv” (26-27/10/2021) sərgisi üçün yükdaşıma xidmətləri;*
- *İngiltərədə “WTM London” (08-09/11/2021) sərgisi üçün yükdaşıma xidmətləri;*
- *Qətər Dövlətində “QTM 2021” (16-19/11/2021) sərgisi üçün yükdaşıma xidmətləri;*
- *Çin Xalq Respublikasında “Maritime Silkroad Expo” (25-27/09/2021) sərgisi üçün yükdaşıma xidmətləri.*

İddiaçılar konsorsium yaratmaqla təkliflər sorğusunda iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar təkliflər sorğusuna dair təkliflərini qapalı, möhürlənib imzalanmış ikiqat zərfdə (üzərində əsli yazılmış) təqdim etməlidirlər.

Azərbaycan Respublikasından olan iddiaçıların təkliflər sorğusuna təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil etdikləri dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, möhürlənib imzalanmış ikiqat zərflərdə **25 avqust 2021-ci il saat 18:00-dək** Bakı şəhəri, Nizami küçəsi, 96E, Landmark I, 3-cü mərtəbəyə (əlaqələndirici şəxs - Mehman Bayramov) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **26 avqust 2021-ci il saat 12:00-da** Bakı şəhəri, Nizami küçəsi, 96E, Landmark I, 3-cü mərtəbədə açılacaqdır. Zərflər iddiaçıların səlahiyyətli nümayəndələrinin iştirakı ilə onların təqdimolunma ardıcıllığı üzrə açılacaq və təkliflər elan ediləcəkdir.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 22 iyun 2021-ci il tarixdə “Bakı Metropoliteni” QSC üçün dəmir-beton şpallar və tirlərin satın alınmasına dair “Təkliflər sorğusu” üsulu ilə müsabiqə keçirilmiş və “10-cu Mikrorayon” MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 413000,00 (dörd yüz on üç min 00 qəpik) manat ƏDV daxil məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Qəmərxanım Cavadlıya qardaşı

**LƏTİF CAVADLININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin əməkdaşı Pərviz Hacıyevə atası

**MÜSEYİB MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və idarənin kollektivi QMİ-nin şöbə müdiri Gündüz Babayevə anası

**MÜZƏYYƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin rəhbərliyi və kollektivi mərkəzin sabiq rəis müavini Hamlet Musayevə əzizi

**SADİQƏ MUSAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4916
Sifariş 1427
Qiyməti 40 qəpik